QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 148 (5620) 8 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan xalqı daim ölkə başçısının qayığısını öz üzərində hiss edir

*Prezident İlham Əliyev:*
*"Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*

Səh 2



5

"Rossiya-24": Qəbələdə onuncu musiqi festivalı - musiqi sərhədləri aradan qaldırır



8

Rusiyaya arxadan zərbə: Paşinyanın gizli planları



7

Bakıda sosial əhəmiyyətli layihələrin həyata keçirilməsinə başlanıb



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

8 avqust 2018-ci il

# Azərbaycan xalqı daim ölkə başçısının qayığısını öz üzərində hiss edir

## *Prezident İlham Əliyev: "Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*



***Məlum olduğu kimi, Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi olub və həmin mərasimdə Prezident İlham Əliyev mənzillərin sənədlərini və avtomobillərin açarlarını sahiblərinə təqdim edib.***

Ümumilikdə, 136 vətəndaşa "Khazar LX" avtomobili verilib ki, onlardan 110-nu ərazi bütövlüyümüzün və müstəqilliyimizin müdafiəsi zamanı əlil olmuş şəxslər, 26-sı isə Böyük Vətən müharibəsi və Çernobıl əlilləridir. Bu isə növbəti dəfə sübut edir ki, ölkə başçımız sosial cəhətdən qayğıya ehtiyacı olanların mənzil-məişət məsələlərinin həllini daim diqqət mərkəzində saxlayır. Məhz Onun bilavasitə tapşırığı ilə bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Belə ki, əlillərə, müharibə veteranlarına və şəhid ailələrinə qayğı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Bu istiqamətdə icra olunan layihələr nəticəsində həmin qəbildən olan minlərlə insanın sosial vəziyyəti gündən-günə daha da yaxşılaşır.

### "Hələ də mənzillə təmin olunmayan şəhid ailələri və müharibə əlilləri mütləq mənzillər alacaqlar"

Bu arada digər bir əhəmiyyətli faktoru da vurğulamaq lazımdır ki, dövlətin bu sahədə gördüyü işlərə Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz mühüm töhfələrini verir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların problemlərinin həlli istiqamətində fondun təşəbbüsü və dəstəyi ilə çox mühüm layihələr icra olunur.

Avqustun 1-də keçirilən mərasimdə çıxış edən Prezident İlham Əliyev vurğulayıb ki, son iyirmi il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil, eləcə də, altı mindən çox minik maşını verilib. "Yəni bu, dövlətin sizə olan qayğısının təzahürüdür və bu siyasət bu gün də davam etdirilir"-deyə qeyd edən ölkə başçısı, eyni zamanda, vurğulayıb ki, reallaşdırılan bu proqram tezliklə başa çatdırılmalıdır. SİTAT: "Əlbəttə ki, buna nail olmaq üçün kifayət qədər maliyyə vəsaiti olmalıdır. Biz imkan daxilində bu vəsaiti təmin edib, təşkil edib sizə mənzilləri təqdim edəcəyik. Hələ də mənzillə təmin olunmayan şəhid ailələri, müharibə əlilləri mütləq mənzillər alacaqlar".

### "Hər il ən azı 7 min ailə bu proqramla əhatə olunacaq"

Daha bir mühüm amil sözügedən kateqoriyadan olan insanların məşğulluq problemlərinin həll edilməsi, eyni zamanda, onların şəxsi biznes qurmaları üçün yaradılacaq şəraitdir. Bu baxımdan, "dövlət öz siyasətini aparır"-deyə qeyd edən Prezident İlham Əliyev vurğulayıb ki, bu kateqoriyadan olan insanların məşğulluq problemləri də həll olunur: "Bildiyiniz kimi, biz indi genişmiqyaslı özünüməşğulluq proqramının icrasına başlamışıq. Hər il ən azı 7 min ailə bu proqramla əhatə olunacaq. Hər bir ailəyə minimum 5 min manat dəyərində ləvazimat, vəsait, müxtəlif təyinatlı avadanlıqlar veriləcək ki, onlar öz biznesini, öz işini qura bilsinlər. Göstəriş verilmişdir ki, müharibə əlilləri, şəhid ailələri də mütləq bu proqramla əhatə olunsunlar. Artıq bu işlər başlamışdır, təlim kursları aparılır. Beləliklə, biz məşğulluq probleminin həllinə də çox ciddi töhfə vermiş olacağıq".

### "Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir"

Beləliklə, həm də belə qənaətə gəlmək olar ki, dövlətimizin sosial siyasəti uğurla aparılır. Ortada olan mövcud reallıq da bunu ehtiva etməkdədir. Misal üçün, dövlət başçımızın da qeyd etdiyi kimi, eyni zamanda, müharibədən, işğaldan əziyyət çəkən bizim köçkün, qaçqın soydaşlarımız da bu qayğını öz üzərində hiss etməkdədir. Belə ki, statistik rəqəmlər də belə deməyə əsas verməkdədir. Misal üçün son illərdə 100-ə yaxın qəsəbə salınıb, üç yüz minə yaxın köçkün evlərlə və mənzillərlə təmin edilib. Prezident İlham Əliyev qeyd edib ki, bu siyasət davam etdirilir: "Bu il Qaradağ rayonunun Qobu qəsəbəsində min mənzillik yeni köçkün qəsəbəsi salınmışdır. Orada da bütün infrastruktur, məktəb, bütün lazımi məsələlər öz həllini tapıb. İlin sonuna qədər isə 4 min köçkün ailəsi, təqribən 20 min insan yeni mənzillərlə təmin ediləcək. Yəni biz ancaq bu layihələri nəzərə alsaq, görərik ki, nə qədər böyük qayğı göstərilir və bu məqsədlərə çatmaq üçün dövlət nə qədər vəsait xərcləyir. Bu siyasət davam etdiriləcək. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir. Mən dəfələrlə demişəm ki, bizim bütün işlərimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə, sosial cəhətdən az müdafiə olunan vətəndaşlar, işğaldan əziyyət çəkmiş, əlil olmuş, yaxınlarını itirmiş insanlar, onların yaşayışı, məşğulluğu, həyat səviyyəsi bizim üçün prioritet məsələdir".

### "Bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, - iqtisadiyyatımız inkişaf edir"

Söz yox ki, bu kimi proqram və layihələrin gerçəkləşdirilməsi arxasında dayanan növbəti reallıq Azərbaycanın iqtisadi potensialının daim yüksək səviyyədə olmasıdır. Daha dəqiq desək, görülən hər bir iş daxili hesablarla görülür. Bu baxımdan, dövlət başçımız qeyd edib ki, nəticələr hər il olduğu kimi, bu il də yaxşı olacaq: "O ki qaldı, bizim iqtisadi potensialımıza, - çünki bütün bu işləri öz daxili imkanlarımız hesabına görürük, heç bir yerdən yardım almırıq, - iqtisadiyyatımız inkişaf edir. Bu il də yaxşı nəticələr olacaqdır. Gələn il daha yaxşı nəticələr olacaq. Artıq ilkin proqnozlar verilibdir. Gələn il sürətli inkişaf ili olacaq. Beləliklə, maliyyə imkanlarımız daha da genişlənəcək və ölkə qarşısında duran əsas vəzifələrin, infrastruktur layihələrin, eyni zamanda və ilk növbədə, sosial məsələlərin həlli üçün biz bu vəsaitdən istifadə edib sizin problemlərinizi həll edəcəyik".

Beləliklə, fakt budur ki, Prezident İlham Əliyev öz uğurlu siyasəti ilə daim xalqının yanındadır və söz yox ki, Azərbaycan xalqı da bundan sonra öz dövlət başçısının yanında daha sıx birləşəcək. Görülən işlərin məntiqi nəticələri də, məhz bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

***Rövşən NURƏDDİNOĞLU***

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Təzəpir məscidi kompleksində təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi ilə bağlı Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Təzəpir məscidi kompleksində təmir-bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün Qafqaz Müsəlmanları İdarəsinə 2,0 milyon manat ayrılıb.

Prezident İlham Əliyev avqustun 7-də "Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, gücü 36 MVt olan Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi məqsədi ilə əlavə olaraq, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 13,5 milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılıb.

# "Azərbaycan idmançısı, Azərbaycan vətəndaşı öz xalqına, dövlətinə bağlıdır, güclüdür..."

*Müasir dövrümüzdə, bütün sahələrdə olduğu kimi, idmanın inkişafı da dövlətimizin diqqət mərkəzindədir. Azərbaycanda idman sahəsində əldə olunan uğurlar, nailiyyətlər və Azərbaycanın idman ölkəsi kimi dünya arenasında tanınması, məhz bu diqqət və qayğının təzahürüdür. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra idmana ayrılan diqqət, idman infrastrukturunun yenidən qurulması, paytaxtımızda, eləcə də, bölgələrdə çoxlu sayda Olimpiya bazalarının tikilib istifadəyə verilməsi idmanın inkişafına təkan verməklə yanaşı, bu sahəyə olan marağı daha da artırıb. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindədir.*



Azərbaycan Prezidenti İlham Əliyevin hələ 1997-ci ildə Milli Olimpiya Komitəsinin rəhbəri seçilməsindən sonra ölkəmizdə idmana və bədən tərbiyəsinə diqqət daha da artdı. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı isə, tezliklə öz müsbət nəticəsini verdi. Əlbəttə ki, idman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir. 2008-ci ilin avqustunda Pekində keçirilən Olimpiya Oyunlarında Azərbaycan idmançılarının qazandıqları qələbələri, xüsusilə, qeyd etmək lazımdır. Pekin Olimpiya Oyunlarında Azərbaycan 7 medal qazandı və dünyanın iki yüzdən çox ölkəsi arasında 38-ci yeri tutdu. Olimpiya oyunlarında qazanılan bu qələbə də, heç şübhəsiz, dövlətin idmana münasibətinin nəticəsi idi.

Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Belə ki, ölkəmizdə yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı, boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Təbii ki, idman hərəkatında uğurların əldə edilməsi, beynəlxalq səviyyədə keçirilən yarışlarda Azərbaycan idmançıları tərəfindən dövlət bayrağımızın ucaldılması, Dövlət himinin səsləndirilməsi, Azərbaycanın çox mötəbər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi ölkəmizin dünya idmanı sahəsinə yeri olduğunu bir daha sübut edir.

Özünün yüksəliş dövrünü yaşayan Azərbaycan Birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, "Formula-1" yarışlarına və onlarla belə dünya miqyaslı tədbirlərə, idman yarışlarına ev sahibliyi edib və bu davam etməkdədir. Təbii ki, bu tədbirlər təhlükəsizliyin, sabitliyin tam təmin olunduğu və əmin-amanlığın hökm sürdüyü məkanada baş tutur və idman yarışları ölkəmizdə ədalət prinsipi ilə keçirilir. Ölkəmizdə idman tədbirlərinin yüksək səviyyədə keçirilməsi və ədalətli şəkildə baş tutmasının nəticəsidir ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev Ümumdünya Ədalətli Oyunlar Komissiyası tərəfindən, Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə Avropa Ədalətli Oyunlar Komissiyası tərəfindən yüksək mükafatlara layiq görülüblər.



Azərbaycan idmançılarının müxtəlif səviyyəli beynəlxalq yarışlarda beş mindən artıq medala layiq görülmələri, Olimpiya Oyunlarında qazanılan qızıl, gümüş və bürünc medallar böyük tarixi nailiyyətdir. Təkcə ötən il Azərbaycan idmançıları bütün beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Cənab İlham Əliyevin vurğuladığı kimi, bu, onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar. 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə Azərbaycan komandası layiq görüldü. Təbii ki, bu uğurların əsasında iqtisadi inkişafımız mühüm yer tutur. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, "Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi, əlbəttə ki, bizim ümumi uğurlarımıza şərait yaradır". İdmanın cəmiyyətimizin ayrılmaz hissəsi olduğunu da diqqətə çatdırıb: "İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə, bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə və gənc idmançılarda da ruh yüksəkliyi yaradır. Onlar da görkəmli çempionlar kimi olmaq, böyük uğurlar qazanmaq, öz bayrağını qaldırmaq istəyirlər və istəyirlər ki, xalq onları da tanısın və onlara da hörmət etsin".

İdmanın inkişafı daim diqqətdədir. Azərbaycan Prezidentinin Sərəncamı ilə idmançılara Fəxri adların, mükafatların verilməsi idmana və idmançılarımıza olan diqqətin daha bir nümunəsidir.

Bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. Çünki idmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə paytaxtla yanaşı, regionlarda da inşa olunan nəhəng idman kompleksləri Azərbayacanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meyilinin artması ilə nəticələnmişdir. Bütün bunlar isə, ilk növbədə, dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Bu gün artıq ölkəmizdə yeni stadionlar və idman kompleksləri yaradılıb. Tofiq Bəhramov adına stadion əsaslı təmir olunub, 70 minə qədər tamaşaçı tutan Bakı Olimpiya Stadionu inşa edilib. Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi və s. idman kompleksləri yarışların keçirilməsində müasir tələblərə cavab verən məkanlardır.

Görülən işlər, idman sahəsinin dövlət tərəfindən qayğı ilə əhatə olunması idmançılarımızın uğurlarına yeni-yeni uğurlar calayır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi idmanın inkişafı və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Azərbaycanda sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir

## Son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub

***Azərbaycanda sənayeləşmə iqtisadi siyasətin prioritetlərindəndir və bu sahədə ölkəmiz zəngin ənənələrə malikdir. Müasir dövrdə sənaye siyasəti rəqabətqabiliyyətlilik, səmərəlilik və ekoloji təhlükəsizlik meyarlarına uyğun yüksək texnologiyaların tətbiqinə yönəlməli, elmi araşdırmalarla üzvi surətdə bağlı olmalı və yeni yanaşmalara əsaslanmalıdır. Son illərdə ölkədə həyata keçirilən uğurlu siyasət davamlı iqtisadiyyatın sənayeləşməsini daha da sürətləndirib. Çünki müstəqil Azərbaycanın gələcək inkişafı ilə bağlı düşünülmüş mühüm proqramlardan biri də modern sənayeləşmədir. Bu istiqamətdə görülən işlər isə göz önündədir.***

Hazırda uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, istehsal və emal müəssisələrinin, sənaye parkları və məhəllələrinin yaradılması davam etdirilir. Azərbaycanda mövcud olan sərmayə yatırımı mühiti həm yerli, həm də xarici investorlar üçün əlverişli şərait yaradır. Bunun nəticəsidir ki, son 15 il ərzində Azərbaycana 250 milyard dollara yaxın sərmayə qoyulub.

İyulun 18-də Azərbaycana səfər edən İtaliya Prezidenti Sercio Mattarellanın və dövlət başçısı İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı da sənayenin inkişafına növbəti töhfəsini verdi. Zavodun açılışında Prezident İlham Əliyev vurğuladı ki, qısa zaman ərzində sənaye parkının ərazisində böyük nəhəng sənaye müəssisəsinin yaradılması Azərbaycanın növbəti uğurudur: "Deyə bilərəm ki, Azərbaycanın müasir tarixində bu ölçüdə və bu səviyyədə sənaye müəssisəsi tikilməyib. Düzdür, bizim neft-qaz sektorunda böyük inşaat işlərimiz həyata keçirilib - böyük platformalar, qazma qurğuları, ancaq qeyri-neft sektorunda, bu, ən böyük sənaye müəssisəsidir və ən son texnologiyalara malik olan müəssisədir".

"SOCAR Polymer" Azərbaycanda, ilk dəfə olaraq, polipropilen və polietilen istehsal edəcək. Bu zavodun tikintisində istifadə olunan texnologiyalar İtaliyanın ən müasir texnologiyalarına aid edilir. Zavod iqtisadiyyatın inkişafında və Azərbaycanın sənayesində böyük rol oynayacaq. Çünki bu zavod təbii ehtiyatlardan istifadə hesabına fəaliyyət göstərəcək. Bu layihə Azərbaycan hökuməti və eləcə də, cəmiyyət üçün mühüm mexanizmlərdən birini təşkil edir. Hazırda ölkəmiz aşağı sıxlıqlı polietileni ixrac, yüksək sıxlıqlı polietileni isə idxal edir. Layihənin əsas məqsədi idxalın əvəz olunması və ölkənin ixrac potensialının artırılmasıdır. 2015-ci ildə təməli qoyulan "SOCAR Polymer" zavodlarından artıq polipropilen zavodu istismara tam hazırdır. Yüksək sıxlıqlı polietilen istehsal edəcək zavodda isə son tamamlama işləri görülür. "SOCAR Polymer" zavodları ildə 19 növ olmaqla, 184 min ton polipropilen və 12 növ olmaqla, 120 min ton yüksək sıxlıqlı polietilen istehsal edəcək. Bu məhsullar sahibkarlıq subyektlərinin xammalla təchiz olunmasında əhəmiyyətli rol oynayacaq, respublikanın ixrac potensialının möhkəmlənməsinə əlavə stimul verəcək. İstehsal edilən məhsulun nəql intensivliyi gündə təqribən 60 yük maşını təşkil edəcək. Polipropilen qablaşdırma materialları, tekstil, dəftərxana ləvazimatı, avtomobil hissələri, elektron və elektrik cihazları və başqa sektorlarda geniş çeşidli istehlak mallarının və dəstləşdirmə hissələrinin istehsalında istifadə olunan əsas ilkin materialdır. Polipropilen ticarət həcminə görə də ən vacib plastik məhsullardan sayılır. "Ekoloji cəhətdən təmiz" plastik adlandırılan polipropilen qida məhsullarının qablaşdırılmasında və tibb sənayesinə aid bütün sahələrdə istifadə oluna bilər.



Polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun fəaliyyətə başlaması nəticəsində, Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq. Hər iki zavodda ildə 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək.

Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və böyük həcmdə qeyri-neft ixracına başlayacaq. Zavodda 500-dən çox yeni iş yeri açılacaq. Azərbaycanın qeyri-neft sektorunun inkişafına zavodun çox böyük dəstəyi olacaq.

Bütün bunlar, bir daha təsdiq edir ki, Azərbaycan öz sənaye potensialını getdikcə müasirləşdirir və gücləndirir. Bu ilin altı ayında qeyri-neft sənayesinin 8,8 faiz artması da bunun sübutudur.

Sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin başlıca istiqamətlərindəndir. Bu baxımdan, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin tərəqqisinə təkan vermək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının və məhəllələrinin qurulması xüsusi əhəmiyyət kəsb edir. Artıq böyük infrastruktur işlərinin həyata keçirildiyi, 17 sahibkarlıq subyektinə rezident statusunun verildiyi Sumqayıt Kimya Sənaye Parkına 2 milyard dollardan çox investisiya yatırılıb və bu istiqamətdə mühüm tədbirlər görülməkdə davam edir. Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasındakı çıxışında da bu məsələyə toxunaraq, qeyd edib ki, artıq ölkəmizdəki sənaye parklarında rezidentlərin sayı 50-yə yaxınlaşır. Bu gün bu parklarda icra edilmiş və icra ediləcək layihələrin ümumi dəyəri 3,6 milyard dollardır və ondan 2,6 milyard dolları artıq yatırılıb.

***"Səs" Analitik Qrupu***

# Azərbaycanın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlib

***Son 15 ildə həyata keçirilən müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyətli dövlətə çevrilib. Qlobal layihələrin həyata keçirilməsində əsas tərəf kimi beynəlxalq iqtisadi-siyasi proseslərdə aparıcı qüvvəyə çevrilən ölkəmizə maraq da ildən-ilə artır. Bu reallıqlar fonunda Azərbaycanın Avropa üçün geosiyasi və iqtisadi əhəmiyyəti daha da yüksəlib, avrostrukturlara inteqrasiya prosesi sürətlənib. Avropa İttifaqı ilə 1993-cü ildə əsası qoyulmuş diplomatik münasibətlər son illər yeni mərhələyə qədəm qoyub.***




Azərbaycan Prezidenti İlham Əliyevin iyulun 11-də Brüsselə səfəri çərçivəsində Avropa İttifaqı Şurasının rəhbərliyi ilə keçirdiyi görüşlər və imzalanan yeni tərəfdaşlıq sənədi əlaqələrin daha da dərinləşməsinə xidmət etmiş oldu. Dövlət başçısının adıçəkilən qurumun prezidenti Donald Tuskla keçirdiyi görüşdə Azərbaycanla Avropa İttifaqı arasında siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu və bu yaxınlarda rəsmi açılışı olan TANAP layihəsinin bu məsələdə böyük əhəmiyyəti vurğulandı. Eyni zamanda, Azərbaycanın yerləşdiyi regiondakı vəziyyət, regional təhlükəsizlik və çağırışlar haqqında da fikir mübadiləsi aparıldı.

Donald Tusk Azərbaycanın dünyəvi və müasir cəmiyyət quruculuğu sahəsində müsbət təcrübəyə malik olduğunu qeyd etdi. Söhbət zamanı Azərbaycanda insan haqları ilə bağlı vəziyyət, bu sahədə həyata keçiriləcək Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı barədə məsələlər müzakirə olundu. Sonra isə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin gələcək inkişafı üçün yeni imkanlar açacaq sənəd paraflandı.

Sənədin birinci bəndində hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur. Eyni zamanda, göstərilir ki, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq, Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Sənəddə Azərbaycanın əlverişli geostrateji mövqeyə malik olması, ölkəmizin "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat və enerji layihələrinin həyata keçirilməsinə verdiyi töhfə də Avropa İttifaqı tərəfindən vurğulanır. Eyni zamanda, "Cənub Qaz Dəhlizi" layihəsinin tezliklə tam yekunlaşmasının və bunun nəticəsində, Avropa bazarlarına təbii qazın çatdırılmasının əsas prioritetlər sırasında olduğu bildirilir.

Azərbaycan Prezidentinin Brüsselə səfəri və yeni sənədin paraflanması ilə bağlı Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda isə, qeyd edilir ki, tərəfdaşlıq prioritetləri 2018-2020-ci illəri əhatə edir və tərəfdaşlığın bərabərhüquqlu və qarşılıqlı xarakter daşıdığını özündə əks etdirir. Sənəddə, həmçinin, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasəti və geniş iqtisadi islahatlar proqramı, Avropa İttifaqının həm neft, həm də qeyri-neft sektoru daxil olmaqla, ölkəmizə qoyulan birbaşa xarici sərmayələrin yarısına pay sahibi kimi əsas investisiya tərəfdaşı olması qeyd edilir.

Tərəfdaşlıq prioritetləri yaxşı idarəçilik, mobillik və insanlararası əlaqələr, mədəniyyətlərarası dialoq, humanitar, təhsil və digər qarşılıqlı maraq doğuran əsas sahələrdə əməkdaşlığı ehtiva edir. Bəyanatda vurğulanır ki, Prezident İlham Əliyevin 2017-ci ildə Avropa İttifaqına səfəri və onun ardınca Avropa İttifaqının yüksək səviyyəli nümayəndə heyətlərinin ölkəmizə səfərləri Azərbaycan-Avropa İttifaqı əməkdaşlığında yeni səhifə açıb. Tərəfdaşlıq prioritetləri, "20 Deliverables for 2020" və tərəfdaşlıq sazişinin tezliklə yekunlaşdırılması ilə digər layihələr Avropa İttifaqı və Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişafı üçün mühüm zəmin və hərtərəfli çərçivə yaradır.

***"Səs" Analitik Qrupu***

# Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub

***Avqustun 7-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Bakı şəhərində və respublikanın digər bölgələrində müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə növbəti görüş keçirilib.***



Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib. Görüşdə Komitənin sədri Rövşən Rzayev, sədr müavinləri, şöbə və departament rəhbərləri iştirak ediblər.

Məcburi köçkünlərin kollektiv və fərdi müraciətləri, əsasən mənzil-məişət problemləri, məskunlaşma, məşğulluq, qeydiyyat və status məsələləri ilə bağlı olub. Qeyd edilib ki, Prezident İlham Əliyev məcburi köçkünlərin problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Belə ki, yeni yaşayış komplekslərinin inşası davam etdirilir, ağır şəraitdə yaşayan məcburi köçkünlər yeni mənzillərə köçürülür. Bildirilib ki, bu sahədə görülən işləri Birinci vitse-prezident xanım Mehriban Əliyeva daim diqqətdə saxlayır.

Məcburi köçkünlərin müraciətləri diqqətlə dinlənilib və müvafiq qaydada qeydə alınıb. Komitə sədri müraciətlərdə qaldırılan məsələlərin qısa müddətdə araşdırılması və mövcud qanunvericilik çərçivəsində tədbirlər görülməsi üçün tapşırıqlar verib.

# Azərbaycan-İsveçrə biznes forumu keçiriləcək



Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfirliyi cari ilin sentyabr ayında İsveçrənin Tiçino kantonunda Azərbaycan-İsveçrə biznes forumunun keçirilməsinə dair razılıq əldə edib. Səfirlikdən AZƏRTAC-a verilən məlumatda bildirilir ki, tədbirdə İsveçrənin mərkəzi və yerli qurumlarının, habelə işgüzar dairələrin və İsveçrədə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin iştirakı gözlənilir.

Səfir Xanım İbrahimova İsveçrənin Tiçino kantonunun Ticarət Palatasının Beynəlxalq Əməkdaşlıq İdarəsinin rəisi Kiara Krivelli və Luqano şəhərinin meri Marco Borradori ilə görüşüb. Görüşdə Azərbaycan-İsveçrə ikitərəfli əlaqələri, Azərbaycanda həyata keçirilən köklü iqtisadi islahatlar və ölkəmizdə mövcud əlverişli investisiya mühitinə dair fikir mübadiləsi aparılıb. Eyni zamanda, Azərbaycan iqtisadiyyatı ilə bağlı tədbirlərin təşkili imkanları müzakirə edilib.

Söhbət zamanı, həmçinin Azərbaycan ilə Tiçino kantonu arasında qarşılıqlı işgüzar səfərlərin təşkili məsələsinə dair müzakirələr aparılıb. Görüşdə qeyd olunub ki, hazırda Azərbaycanda İsveçrə kapitallı 71 şirkət fəaliyyət göstərir. Həmçinin Azərbaycandan İsveçrəyə 1,2 milyard ABŞ dolları investisiya yatırılıb. 2017-ci ildə ölkələr arasında ticarət dövriyyəsi 240 milyon dollar təşkil edib ki, bu da 40 faizdən çox artım deməkdir.

# Tahir Mirkişili: "Hər 100 manatın 37-38 manatı sosial xərclərə yönəldilir"



"Ümumiyyətlə, Azərbaycan Respublikasının Konstitusiyasının maddələrinin üçdə-ikisi Azərbaycan dövlətinin sosialyönümlü dövlət olduğunu sübut edir". Bunu SİA-ya açıqlamasında millət vəkili Tahir Mirkişili deyib.

"Əgər biz büdcə xərclərinə fikir versək görərik ki, büdcə xərclərinin də hər yüz manatın təxminən 37-38 manatı məhz sosial xərclərə yönəldilir. Məhz büdcənin bu istiqamətdə, formada tərtib olunması və eyni zamanda əlavə olaraq Azərbaycan Prezidentinin Ehtiyyat Fondundan ayrılan məbləğlərin böyük əksəriyyəti sosialyönümlü sahələrə yönəldiyindən, düşünürəm ki, Azərbaycan sosial sahədə kifayət qədər güclü siyasət yeridən dünyada az ölkələrdəndir. Təbii ki, bu siyasətin başında da ölkə Prezidenti cənab İlham Əliyev durur. Dövlət başçısının birbaşa təşəbbüsləri ilə həm sosial təminata ehtiyacı olan əhalinin sosial qayğısının daha da gücləndirilməsi, qaçqınlar üçün şəhərciklərin tikilməsi, qaçqın və məcburi köçkünlərə yeni mənzillərin paylanılması, eyni zamanda şəhid ailələrinə, Qarabağ veteranı ailələrinə yeni mənzillərin, avtomobillərin paylanılması və s. sosial qayğıya ehtiyacı olan insanlara bir dövlətin edə biləcəyi ən böyük çeşidli yardımların siyahısıdır. Məhz belə bir yardımların davam etməsi, eyni zamanda bu yardımın əhatəsinin genişləndirilməsi həm Azərbaycan dövlətinin sosial siyasəti, həm də ölkə Prezidentinin sosial siyasətinin getdikcə daha da gücləndirilməsinin yeni sübutudur", - deyə, millət vəkili fikirlərini tamamlayıb.

# "Rossiya-24": Qəbələdə onuncu musiqi festivalı - musiqi sərhədləri aradan qaldırır




Rusiyanın "Rossiya-24" telekanalında X Qəbələ Beynəlxalq Musiqi Festivalı barədə reportaj yayımlanıb. AZƏRTAC xəbər verir ki, telekanalın müxbiri artıq bir neçə gündür Azərbaycanın Qəbələ şəhərində Kuba salsası, ispan flamenkosu, gürcü cazı və əlbəttə, klassik musiqinin səsləndirildiyini qeyd edir. Burada X Qəbələ Beynəlxalq Musiqi Festivalı keçirilir, adlı-sanlı sənətçilər və yenicə addım atan musiqi qrupları eyni səhnəni bölüşürlər.




Azərbaycan Dövlət Akademik Filarmoniyasının direktoru, Xalq Artisti, professor Murad Adıgözəlzadə Rusiya telekanalına müsahibəsində deyib: "Bu festival Azərbaycanın tanınması baxımından çox əhəmiyyətlidir. İkinci festivaldan sonra xəbəri olan az idisə, artıq üçüncü festivaldan sonra iştirak üçün xeyli sayda musiqiçi müraciət etmişdi. Qəbələni Azərbaycanın kiçik İsveçrəsi adlandırırlar. Bu festivalın açılışında dövlət simfonik orkestrimiz çıxış edib. Festivalın onilliyi dahi bəstəkar Qara Qarayevin 100 illik yubileyi ilə də əlaqələndirilib".

Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq Artisti Fərhad Bədəlbəyli deyib: "Məni festivalın konsepsiyasının olmamasına görə dəfələrlə amansız tənqid edib, "bu, klassik musiqi festivalı, folklor musiqisi festivalı və ya nədir?", - deyə söyləyiblər. Mənə elə gəlir ki, buradakı müxtəlifikdən tamaşaçılar yorulmur. Bu gün onlar İ.Bramsın simfoniyasını dinləyir, ertəsi gün isə flamenkonu izləyirlər. Bunun nəyi pisdir? Kimi flamenkonu daha çox xoşlayır, kimi cazı sevir. Bizim festival, həmçinin maarifçi xarakter daşıyır".

# Koçaryana qarşı siyasi təqib iddiaları artır

## *Paşinyan hökuməti avtoritarçılıqda ittiham olunur*

***Robert Koçaryanın həbsi ətrafında baş verən hadisələr get-gedə şişməkdə və siyasi partlayışa çevrilməkdədir. Belə ki, artıq onun həbsi ətrafında bir sıra siyasi təşkilatlar, fərdi siyasətlə məşğul olan şəxslər tərəfindən bəyanatlar səsləndirilib və səsləndirilməkdə davam edir. Görünən isə budur ki, Nikol Paşinyan hökumətinə qarşı avtoritarizm idarəçiliyi ittihamı irəli sürülür. Hər halda, Ermənistanda fəaliyyət göstərən bir sıra media resursları da bu barədə yazmağa başlayıblar.***

“Bəlli olub ki, Robert Koçaryanın həbs qərarının dəyişdirilməsi üçün 3-ü Daşnaksyutun fraksiyasından olmaqla, 46 deputat, o cümlədən, Sarukyan blokundan 1 nəfər, yerdə qalanlar isə Respublika Partiyasını təmsil etməklə, xahiş sənədi imzalayıblar”. Bu barədə “Iragir.am” saytının siyasi şərhlər bölümündə yazılıb. Qeyd olunur ki, Daşnaksyutun fraksiyasını təmsil edən deputatların yarısı, faktiki olaraq, Koçaryanın həbs qərarının dəyişdirilməsi üçün sözügedən sənədə imza atıblar.

### Daşnaksyutun Koçaryanın həbsi ilə bağlı iki dəfə bəyanat yayıb

Məlumatda, həmçinin, qeyd edilir ki, hazırkı vaxta qədər Daşnaksyutun Koçaryanın həbsi ilə bağlı iki dəfə bəyanat yayıb və həmin bəyanatda ona qarşı siyasi təqibin və təhdidin olduğuna eyham vurulub. “Robert Koçaryanın və bu sıradan olan digər yüksək rütbəli şəxslərin ünvanına irəli sürülmüş ittihamlar qanunvericiliyin pozulması və təqib təəssüratını yaradır”-deyə ikinci bəyanatda bildirilib.

Məhz bu bəyanat üzərində yazılan şərhdə qeyd olunur ki, Daşnaksyutun hər şeyə rəğmən, hökumət tərkibində qalmaqda davam edir və s.

“Lakin Koçaryana qarşı irəli sürülmüş ittiham və onun həbsi yavaş-yavaş siyasi müstəviyə daxil olur və 1 mart hadisələrinin



atmosferi baxımından belə də olmalı idi”-şərhdə bildirilir.

### Köhnə sistem Koçaryan ətrafında mobilizə olunur

Eyni zamanda, o da qeyd olunur ki, artıq politoloqlar da öz analizlərində köhnə sistemin Koçaryan ətrafında mobilizə olduğunu deyirlər. Belə ki, bəzi məlumatlara görə, onun ətrafı informasiya resurslarını hüquqi müdafiə üzərində deyil, məhz siyasiləşdirmək üzərindən istifadə edirlər.

“Yeri gəlmişkən, Koçaryan həbsinə qədər siyasətə geri dönməsi ilə bağlı fikirləri istisna etmirdi, bəyan edirdi ki, ona qarşı aparılan kampaniya da bunun qarşısını almağa yönəlib”-şərhdə bildirilir.

### Daşnaksyutunun şpaqatı

Son olaraq, o da qeyd olunur ki, belə bir vəziyyətdə Respublika Partiyası öz seçimini edib və onun başqa çıxış yolu da yoxdur. Daşnaksyutun isə bir ayağı ilə köhnə, digər ayağı iləsə yeni Ermənistanda qalmağa çalışır: “Yalnız açılmış şpaqat get-gedə daha da genişlənir və nə zamansa, Daşnaksyutunun ayaqlarının uzunluğu şpaqatın genişliyinə tab gətirməyə də bilər”.

Beləliklə, şərhdən də, göründüyü kimi, Koçaryanın həbsi siyasiləşdirilir və Ermənistanın yeni hökumətinin “qanunpərəstlik” adı altında təqiblərlə məşğul olması reallığı ortaya çıxır. Hər iki halda - təqib olunanlar da, təqib edən Paşinyan hökuməti də çıxılmaz siyasi böhranda olduqlarını nümayiş etdirməkdədirlər.

***Rövşən NURƏDDİNOĞLU***

# XİN: Konsulluq xidməti ABŞ-da həbs olunan şəxslərlə görüşmək üçün hüquq-mühafizə orqanları ilə təmasdadır

ABŞ-da həbs olunan şəxslər Azərbaycan Respublikası vətəndaşlarıdır. Bunu Trend-ə XİN-nin Mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev KIV-in sorğusuna cavab olaraq bildirib. H.Hacıyev deyib: “ABŞ-ın hüquq-mühafizə orqanları tərəfindən Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyinə bu barədə məlumat verilib.

Səfirliyin konsulluq xidməti sözügedən şəxslərlə görüşmək üçün ABŞ-ın hüquq-mühafizə orqanları ilə təmasdadır”.

Qeyd edək ki, ABŞ-da Türkiyə, Gürcüstan, Qazaxıstan, Rusiya, Ukrayna, Latviya, eləcə də Azərbaycan vətəndaşlarından ibarət cinayətkar qrup saxlanılıb. Dəstə üzvləri dələduzluqda və 4,5 milyon dollar həcmində çirkli pulları yumaqda ittiham olunur.

# “YARAT” uşaqlar üçün yeni yay proqramı hazırlayıb




Avqustun 13-də “YARAT” Müasir İncəsənət Mərkəzi uşaqları nənə-babaları ilə birlikdə “Camping and Gramping” yay düşərgəsinə qatılmağa dəvət edir. AZƏRTAC xəbər verir ki, sözügedən proqram “Əmək, istirahət və xəyallar: 1960-1980-ci illər Azərbaycan ustadlarının gözləri ilə” adlı sərgiyə həsr olunur. Ustad dərslərin mövzusu “Xəyallar”dır və iştirakçılar öz xəyallar aləmini yaratmaq imkanı əldə edəcəklər. Ustad dərslər istedadlı kuklaçı-rəssam Leyla Qabulova tərəfindən aparılacaq. Sonda əsərlərin yekun sərgisi açılacaq.

# Kənd Təsərrüfatı Nazirliyi Qurban bayramında Qida Təhlükəsizliyi Agentliyi ilə birgə fəaliyyət göstərəcək

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

Kənd Təsərrüfatı Nazirliyi Qurban bayramı günlərində respublikada ət kəsiminə nəzarəti həyata keçirən Qida Təhlükəsizliyi Agentliyi ilə birgə fəaliyyət göstərəcək. AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə müsahibəsində kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev məlumat verib.

O bildirib ki, nazirlik tabeçiliyində olan təsərrüfatlardan erkək və sağlam heyvanların bazara çıxarılmasına, orada formalaşacaq işçi qrupunda nazirliyin nümayəndələrinin iştirakının təmin edilməsinə çalışacaq. Bundan əlavə, Qurban bayramının yüksək səviyyədə təşkili üçün ət kəsimi yerlərinin müəyyən olunması və təcrübənin bölüşdürülməsində də Qida Təhlükəsizliyi Agentliyi ilə birgə həyata keçiriləcək.

# Paytaxtın kimya sənayesində məhsul buraxılışı 22,1 faiz azalıb



Bakının kimya sənayesində məhsul buraxılışı 22,1 faiz azalıb. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, yarım ildə paytaxtın kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 124,3 milyon manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı kimya sənayesində 22,1 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında 0,9 faiz azalma, əczaçılıq məhsullarının istehsalında isə 5 faiz artım müşahidə olunub.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kimya məhsullarından azot istehsalı 4,3 dəfə, oksigen istehsalı 72,8 faiz artıb. Rezin və plastik kütlə məmulatlarından bərk polietilen borular, borucuqlar, şlanqlar, qolların istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,3 dəfə, polietilen kisə və çantaların istehsalı 32 faiz artıb, liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqların istehsalı isə 82,3 faiz azalıb.

# Bu il hər bir Bakı sakini ayda 161,5 manatlıq ödənişli xidmətlərdən istifadə edib



Bu ilin yanvar-iyun aylarında Bakı əhalisinə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 2 milyard 372,9 milyon manata çatıb. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, hüquqi şəxslər tərəfindən əhaliyə 1 milyard 538,7 milyon manatlıq xidmət göstərilib. Bu da xidmətin ümumi dəyərinin 64,8 faizini təşkil edib.

Qeyri-dövlət sektorunda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 1 milyard 873,6 milyon manat olub. Cari ilin yanvar-iyun ayları ərzində hər bir şəhər sakini orta hesabla ayda 161,5 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 5,9 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.

# Azərbaycan alimi Avstraliyada beynəlxalq konfransın mükafatına layiq görülüb



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, akademik Asəf Hacıyev Avstraliyanın Melburn şəhərində keçirilən beynəlxalq konfransda iştirak edib.

AMEA-dan AZƏRTAC-a bildirilib ki, Monaş Universiteti və “Management Sciencs and Engineering Management” Beynəlxalq Cəmiyyəti tərəfindən təşkil olunan konfransa ABŞ, Avstraliya, Kanada, Çin, Yaponiya, Hindistan və digər ölkələrin elmi mərkəzlərindən olan 100-ə yaxın alim qatılıb.

Akademik A.Hacıyev plenar məruzə ilə çıxış edib və konfransın mükafatına layiq görülüb. Konfrans çərçivəsində yüksək impakt faktoru olan “Omega” jurnalının baş redaktoru, professor Benjamin Levle ilə Azərbaycan alimlərinin bu jurnalda məqalələrinin dərc olunması, həmçinin Kanadanın Brock Universitetinin professoru Syed Ejaz Ahmed və Çinin Chengdu Universitetinin professoru Jiuping Xu ilə gələcəkdə birgə elmi araşdırmaların aparılması məsələləri müzakirə edilib.

# Ermənistanın yeni hakimiyyəti həqiqətən sülh istəyirsə, işğalçılıq siyasətinə son qoymalıdır

*Milli Məclisin deputatı Elman Məmmədovun yap.org.az-a müsahibəsi*

***- Elman müəllim, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli mövqeyini davam etdirir. Bu kontekstdə Azərbaycan diplomatiyasının fəaliyyətini və əldə olunmuş nailiyyətləri necə dəyərləndirirsiniz?***

- Azərbaycan dövlətinin xarici siyasətində Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasən, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi prioritet istiqamətdir. Azərbaycan bu istiqamətdə prinsipial mövqeyini, işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün fəaliyyətini davam etdirir.

Bizim üçün başlıca prinsipial məsələ məhz beynəlxalq hüquqa və ədalətə söykənərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinə nail olmaqdır. Ermənistanın qeyri-konstruktiv mövqeyini və bir sıra aparıcı dövlətlərin münaqişəyə ikili yanaşmasını sürdürdüyü bir vaxtda Azərbaycan istər diplomatik, istərsə də iqtisadi vasitələrlə işğalçı ölkəyə qarşı təzyiq siyasətini davam etdirir. Ümumiyyətlə, Azərbaycan həqiqətlərinin, xüsusilə də Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində görülən işlərin uğurlu nəticəsi, Ermənistanın regiondakı bütün layihələrdən kənarda qalması, daxilindəki sosial və iqtisadi böhranların dərinləşməsi Azərbaycanın işğalçını bütün sferalarda təcrid etmək siyasətinin nailiyyətləri kimi səciyyələndirilə bilər. Bundan başqa, informasiya müharibəsində də əhəmiyyətli nailiyyətlər əldə edilib. Həmçinin, Azərbaycan öz qətiyyətli mövqeyi və prinsipial siyasəti ilə diplomatik cəbhədə davamlı uğurlar əldə edib.

***- Mövcud reallıqlar fonunda münaqişənin həlli məsələsinə beynəlxalq təşkilatlar və qurumların münasibəti ilə bağlı nə deyə bilərsiniz?***

- Azərbaycanın tutduğu prinsipial mövqeyin fonunda dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruri və qaçılmaz bir proses olduğunu hər zaman bəyan edirlər. Məhz bunun nəticəsidir ki, beynəlxalq təşkilatların bir sıra sessiyalarında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı fundamental və zəruri qətnamələr qəbul edilib. İyulda Brüsseldə keçirilən NATO-nun Zirvə Sammtinin yekun sənədində, eləcə də, Azərbaycanla Avropa İttifaqı arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində ölkəmizin ərazi bütövlüyünün tanınması buna sübutdur.

Bütövlükdə, Azərbaycan tərəfi münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda siyasi iradə nümayiş etdirərək konfliktin nizamlanması yolunda konstruktiv mövqe sərgiləyib. Azərbaycan münaqişənin beynəlxalq hüquq normaları əsasında, ədalətli həllinə nail olmaq məqsədilə genişmiqyaslı iş aparır, beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirir. Ölkəmiz nəinki öz həqiqətlərini dünyaya çatdıra bilib, həm də siyasi, diplomatik, iqtisadi, hərbi sahələrdə işğalçı Ermənistan üzərində aşkar üstünlüyə nail olub. Digər sahələrdə olduğu kimi, Azərbaycanın ərazi bütövlüyü məsələsində də ölkə rəhbərliyinin qətiyyətli və birmənalı mövqe sərgiləməsi Ermənistan və bəzi xarici ermənipərəst qüvvələrin müxtəlif qərəzli niyyətlərini dəfələrlə iflasa uğradıb.



***- Azərbaycanın səmərəli xarici siyasəti və uğurlu diplomatiyası sayəsində Ermənistan dalana dirənib, bütün layihələrdən təcrid olunub. Bunu Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində mühüm amil kimi qiymətləndirmək olarmı?***

- Hazırkı şəraitdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi üstünlük təşkil edir. Dünya ictimaiyyəti anlayır ki, separatizm ciddi təhdidlər yaradır, bu səbəbdən dövlətlərin ərazi bütövlüyü əsas götürülməlidir. Yəni Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları və ərazi bütövlüyü prinsipi əsasında həll olunmalıdır.

Bütövlükdə, Azərbaycanın uğurlu diplomatiyası sayəsində Ermənistan dalana dirənib. Eyni zamanda, Cənubi Qafqazın lider dövləti olaraq Azərbaycan işğalçı ölkəni bütün regional və beynəlxalq layihələrdən təcrid edib. Təbii ki, bu amil təcavüzkar Ermənistandakı sosial-iqtisadi böhranın dərinləşməsini şərtləndirib. Ümumilikdə, Ermənistanın işğalçı, təcavüzkar siyasəti nəticəsində regional və beynəlxalq miqyasda təcrid vəziyyətinə düşməsi bu ölkənin gələcəyini sual altına alıb. Bu gün heç nisbi müstəqilliyə də malik olmayan, xaricdən gələn ianələrə bel bağlayan və total tənəzzülün müşahidə olunduğu Ermənistanda mövcud iqtisadi tənəzzül və xaos insanların həyat şəraitini olduqca çətinləşdirdiyi üçün ekspertlər bədbin proqnozlar ifadə edirlər. Ermənilər indi keçmiş hərbi xuntanın - Sarkisyan hakimiyyətinin kriminal xarakterli fəaliyyətinin ölkəni uçuruma apardığını etiraf edirlər.

Erməni xalqı 20 il ərzində onlara hərbi xunta rejiminin rəhbərlik etdiyini anlayıb və görür ki, bu müddət ərzində hərbi xunta rejiminin fəaliyyəti və yarıtmaz siyasəti nəticəsində Ermənistanda böhran və tənəzzül meyilləri pik həddə çatıb, işğalçı siyasətin davam etdirilməsi bu ölkənin sonunun başlanğıcına zəmin yaradıb. Ermənistanda dərin sosial-iqtisadi tənəzzül meyilləri sosial gərginliyin artmasını şərtləndirib və Sarkisyan hakimiyyəti dövründə hərbi xuntanın qəbul etdiyi qərarlar vətəndaşların dərin etirazına səbəb olmaqla yanaşı, xaos və qarşıdurmaya rəvac verib. Nəticədə cinayətkar Serj Sarkisyan hakimiyyətdən qovuldu.

***- Azərbaycanın həm diplomatik, həm də hərbi-siyasi cəbhədə nailiyyətləri mühüm bir reallığı nümayiş etdirir: Paşinyan əvvəlki hökumətin səhvlərini təkrar etməməli və Ermənistan işğalçı siyasətdən əl çəkməlidir...***

- Azərbaycan ərazisinin 20 faizini işğal etmiş, hətta digər bir sıra ölkələrə qarşı da ərazi iddiaları ilə çıxış edən Ermənistan olduqca mürəkkəb durumdadır. Onun tək çıxış yolu işğal edilmiş Azərbaycan torpaqlarının boşaldılması, təcavüzkar iddialardan vaz keçilməsidir. Bu gün bütün regional layihələrdən təcrid olunan - bölgədə blokada vəziyyətində olan Ermənistanın bir sıra dairələri mövcud hakimiyyətin işğalçılıq siyasətindən imtina etməsini yeganə çıxış yolu kimi göstərirlər. Mövcud reallıqlar, o cümlədən 2016-cı ilin aprel döyüşlərinin nəticələri Ermənistanda ideoloji əsasları dağıtmaqla yanaşı, bu ölkənin işğalçılıq siyasətindən əl çəkməsinin zəruriliyini bir daha nümayiş etdirdi.

İşğalçı Ermənistanın yeni hakimiyyəti Sarkisyanın vəziyyətindən dərs çıxarmalıdır. Ermənistanın baş naziri Nikol Paşinyan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı fikirləri, onun işğal olunmuş ərazilərimizə səfəri münaqişənin sülh yolu ilə həllinə xidmət etmir. Həmçinin, o, aparılan danışıqlarda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin tərəf kimi iştirakını təklif etməklə özünə dividend qazanmaq istəyir. O, həm də bəyanatlarında sülh tərəfdarı olduğu görüntüsü yaratmağa çalışır. Əgər Ermənistanın yeni hakimiyyəti, Paşinyan həqiqətən sülh istəyirsə, işğalçılıq siyasətinə son qoymalıdır, Azərbaycanın qəsb olunmuş torpaqları geri qaytarılmalıdır.

Əslində, Paşinyan bu sərsəm və absurd fikirləri ilə münaqişənin nizamlanması ilə bağlı danışıqları yubatmaq istəyir. Ermənistan iflas vəziyyətindədir, ölkə onsuz da kifayət qədər zəifləyib, etirazlar dalğasından sonra isə tam çıxılmaz hala düşüb. Belə vəziyyətdə olan Ermənistanla inkişaf etmiş Azərbaycanın danışıqlara getməsi bu ölkə üçün faciəli ola bilər. Ona görə də Paşinyan vaxt udmaq istəyir. Amma başa düşməlidir ki, Ermənistanın gələcəyi işğal siyasətinə son qoyulmasından keçir. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyincə, heç bir perspektivə nail ola bilməyəcək.

## Bakıda sosial əhəmiyyətli layihələrin həyata keçirilməsinə başlanıb



Azərbaycan Respublikasının Prezidentinin tapşırıqlarına uyğun olaraq, paytaxtın bütün rayonlarında sosial əhəmiyyətli, sakinlərin məişət şəraitinin, yaşayış və istirahətinin yaxşılaşdırılmasına yönəldilən layihələrin icrasına başlanıb. Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a daxil olan məlumata görə, ilk növbədə çoxmənzilli yaşayış binalarının girişlərinin, ümumi istifadə yerlərinin, fasadların təmiri, yeni "Abad həyət" və məhəllələrin, burada vətəndaşların istirahəti üçün müvafiq şəraitin yaradılması işləri aparılır. Əsas məqsəd paytaxtın infrastrukturunu daha da təkmilləşdirərək yeniləşdirmək, şəhərimizi daha da gözəlləşdirməkdir. Görülən işlərə nəzarət Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən həyata keçirilir.

## Musa Quliyev: "Ermənistan tarix səhnəsində biabırçı bir nümunədir"



"Ermənistan kimi cırtdan və gücsüz dövlətlər heç zaman müstəqil siyasət yürüdə bilmirlər, kiminsə vassalı, şəraitdən asılı olaraq əl maşası, yaxud qapazaltısı olurlar. Bu mənada, Ermənistan nəinki istisna deyil, tarix səhnəsində biabırçı bir nümunədir". Bu fikirləri yap.org.az-a açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Musa Quliyev bildirib. Musa Quliyev qeyd edib ki, Qafqaza ermənilərin köçürülməsi və Azərbaycan torpaqlarında erməni dövlətinin qurulması vaxtilə çar Rusiyasının müsəlman əhalinin yaşadığı İrana və Osmanlı İmperatorluğuna qarşı xristian buferi yaradılması məqsədi güdürdü. İndi də istər Qərb, istərsə də Rusiya Ermənistandan gah Azərbaycana, gah Türkiyəyə, gah da bir-birilərinə təzyiq vasitəsi kimi öz maraqları üçün istifadə edirlər. İşğalçı, bandit, başkəsən Köçəryan-Sərkisyan xunta rejiminin Ermənistanda hakimiyyətə gətirilməsi və uzun müddət iqtidarda qalması bir xarici gücün maraqlarına xidmət edirdisə, Paşinyanın ortaya çıxması və gözlənilmədən hakimiyyətə yiyələnməsi, görünür, ağaların alçak dəyişməsi və vassalın ağa dəyişməsi prosesinin ifadəsidir. Hər halda fikrimcə, bu dəyişmədə erməni xalqı həmişə olduğu kimi yenə də alət rolunu oynamaqdadır. Əsas reallıq bundan ibarətdir ki, Ermənistanda ictimai- siyasi sabitlik pozulmuşdur və yaxın zamanlarda hadisələrin daha da kəskinləşməsinin şahidi ola biləcəyik. "Qarabağ klanı" deyilən Köçəryan-Sərkisyan bandasının iqtidardan və ölkədən qovulması prosesinə start verilmişdir. Amma nəzərə alaq ki, Ermənistan bütövlükdə kriminal bir dövlətdir və Paşinyan da faktiki olaraq çevriliş yolu ilə hakimiyyətə yiyələnmişdir. Onun hansısa demokratik-hüquqi islahatlar aparacağına inanmaq lazım deyil.

## Dmitri Verxoturov: "Rusiya Ermənistanın fəaliyyətinə daha sərt reaksiya verməlidir"



Ermənistan rəhbərliyinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qarşı sərt bəyanatlarından sonra Rusiyanın bir açıqlama verməsi kifayət deyil. Bunu rusiyalı ekspert və ictimai xadim Dmitri Verxoturov Ermənistanda baş verən son hadisələri və Rusiya XİN rəhbəri Sergey Lavrovun bu barədə bəyanatını şərh edərkən deyib.

Ekspertin fikrincə, Ermənistanın kifayət qədər etibarlı müttəfiq olub-olmaması barədə sualı ortaya qoymağın vaxtı çatıb.

D.Verxoturovun sözlərinə görə, Robert Koçaryan və digərlərinin həbsinin bilavasitə səbəbi hakimiyyət uğrunda, daha doğrusu Yerevanda hakimiyyətin möhkəmləndirilməsi uğrunda mübarizədir: "Nikol Paşinyan bu yolla ona gələcəkdə çətinliklər yarada biləcək siyasi rəqiblərini kənarlaşdırır. Bu da həbs olunan siyasətçilərin Rusiyayönümlü olması ilə üst-üstə düşüb və şübhəsiz ki, baş nazirin fəaliyyəti Rusiyaya qarşı da yönəlib. KTMT-nin hazırkı sədrinə qarşı cinayət işi bu təşkilatın nüfuzuna zərbə, qurumun rəhbərliyinin iflic olunmasıdır, bir sözlə dostluq addımı deyil. Əgər dinc vaxtda bu cür insidentlər baş verirsə, daha ciddi vəziyyətlərdə "öz müttəfiqimizdən" nələr gözləmək olar?" Ekspertin fikrincə, N.Paşinyan KTMT-ni çətin vəziyyətdə qoyub və bu insident Moskva üçün ciddi siqnal olmalıdır.

# Rusiyaya arxadan zərbə: Paşinyanın gizli planları

***Ermənistan bir müddətdir ki, narahat siyasi həyat yaşayır. Orada küçə etirazları üzərində hakimiyyətə gələn qüvvə qaranlıq məqamlarla dolu addımlar atır. Bu da Ermənistanın ən yaxın müttəfiqi olan Rusiya kimi dövlətin rəhbərliyini düşündürür. Bir neçə gün əvvəl Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistanda yeni hakimiyyətin atdığı addımlarla bağlı fikir bildirməklə Kremlin mövqeyini konkret ifadə etmiş oldu. Məlum olur ki, Nikol Paşinyan Rusiya rəhbərliyinə verdiyi vədlərə əməl etmək fikrində deyil. Bütün bunların fonunda rəsmi İrəvanın S.Lavrovun sözlərinə sərt reaksiya verməsi və N.Paşinyanın insanları yenidən mitinqə çağırması müəyyən şübhələr yaradır. Belə təəssürat oyanır ki, Ermənistanın yeni hakimiyyəti ikili oyun aparır və onun başlıca mahiyyəti Rusiyaya arxadan zərbə endirməkdən ibarətdir. Məsələnin bu aspekti üzərində bir qədər geniş dayanmağa ehtiyac duyuruq.***



## Köhnə sindrom: erməni siyasətinin illüziyaları

Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistanın yeni hakimiyyəti ilə bağlı jurnalistə dediyi sözlər erməni siyasi və ekspert dairələrində geniş əks-səda doğurub. Onlar qəfil ayılıb görürlər ki, tam olaraq Moskvadan asılıdırlar və Rusiya rəhbərliyi bu barədə açıq fikir bildirə bilər. Dəfələrlə bu, belə olub. Məsələn, müxtəlif səviyyələrdə ermənilərə anladıblar ki, Dağlıq Qarabağı özbaşına işğal etməyiblər. Onlara ciddi hərbi, maliyyə, ideoloji, təbliğat və diplomatik dəstək olub. Onların sırasında Rusiya da vardır.

Bəs İrəvan məhz indi Moskvadan səslənən və ermənilər üçün normal sayılan peşəkar diplomatın fikirlərinə hansı səbəblərdən dözülməz münasibət bildirir? Ermənistanın siyasətində hansısa ciddi dəyişikliklərmi baş verir? Yoxsa, bu, ermənilərin növbəti şıltaqlığıdırmı? Ekspertlər bu kimi suallara cavab axtarırlar. Burada mövqelər fərqlənir. Bir sıra ekspertlər hesab edir ki, həqiqi mənada İrəvanın daxili və xarici siyasətində dəyişikliklər baş verir. Onların başlıca məqsədi imkan daxilində müstəqil siyasət yeritmək, daha çox isə daxildə müstəqil addımlar atmaq hüququ əldə etməkdir. Nikol Paşinyanın özü də bu barədə danışır. O vurğulayır ki, xarici siyasət kursunda ciddi dəyişiklik yoxdur, Rusiya əvvəlki kimi əsas strateji müttəfiqdir. Ermənistanın təhlükəsizliyi məsələsində də Kremllə eyni mövqedə qalacaqlar. Lakin bu, İrəvanın dövlət quruculuğunda müstəqil addımlar atmasına mane olmamalıdır.

Moskva isə bu sözlərə inanmır. Çünki N.Paşinyan real olaraq antirusiya xətti yeridir. Hökumətə Qərb əhval-ruhiyyəli adamlar gətirilməklə yanaşı, Ermənistanda hakimiyyətdə olmuş qruplara qarşı tədbirlər görülür. Məsələ yalnız R.Koçaryan kimilərin həbsindən ibarət deyil. N.Paşinyan addım-addım Ermənistanın siyasi mühitini dəyişməyə və burada yalnız özünə yaxın dairələrin dominantlığını təmin etməyə çalışır. Bu kontekstdə erməni ekspertlərin irəli sürdükləri ssenarilər maraqlıdır.

Belə qənaət var ki, N.Paşinyan 1 il müddətində əsas siyasi rəqiblərini zərərsizləşdirdikdən sonra iki istiqamətdə addım atacaq. Birincisi, 1999-cu ildə parlamentdə törədilən terror hadisəsinin təşkilatçılarını üzə çıxaracaq. İkincisi, prezident üsul-idarəsinə qayıdıb, özü prezident seçiləcək. Birinci məsələ çox ciddi geosiyasi nəticələri olan hadisə ilə bağlıdır. Əgər N.Paşinyan doğrudan da buna getsə, onda Ermənistanın ən yeni tarixinin saxta olduğunu təsdiqləmiş olacaq. Çünki 1999-cu il qətliamını rəsmi olaraq açmadılar. Orada qətlə yetirilən siyasətçilərin hansı səbəblərdən hədəf seçildiyi barədə birmənalı mövqe bildirilmədi. Deməli, həmin dövr qaranlıq olaraq qalır. Ondan bu yana Ermənistanı R.Koçaryan və S.Sarkisyan illüziya dünyasında idarə ediblər.

Yəni erməni cəmiyyəti ölkənin taleyində ciddi rol oynayan həmin hadisənin əsl səbəblərini və təşkilatçıların kimliyini bilmir. Belə olduğu halda niyə illərdir erməni xalqına demokratiyadan, millətçilikdən, təhlükəsizliyin təminindən, müstəqillikdən və güclü ordu quruculuğunun aparıldığından bəhs ediblər? Belə çıxır ki, keçən əsrin 90-cı illərindən Ermənistan real dövlətçilik müstəvisində olmayıb, qaranlıq planlar meydanı olub. Konkret desək, Ermənistanda müstəqil dövlət quruculuğu iflasa uğrayıb.

## İkili oyun: müttəfiqi aldatmaq cəhdi

Birinci məsələnin başqa əhəmiyyətli məqamı bir sıra erməni KİV orqanlarının 1999-cu il parlament terrorunun arxasında Rusiya xüsusi xidmət orqanlarının dayandığına işarə etməsidir. Bu, ciddi ittihamdır və həqiqət, yaxud yalan olduğunu biz deyə bilmərik. Lakin əgər erməni KİV-lərində belə informasiyalar verilirsə, onda Moskva ittiham edilir. Təbii ki, Rusiya bu ittihamlara cavab verməlidir. Sergey Lavrovun Ermənistanın yeni rəhbərliyi haqqında dediklərinə də hər şeydən öncə məhz həmin aspektdə nəzər salmaq lazımdır. Rusiya XİN rəhbəri demişdi ki, Ermənistanın yeni hakimiyyəti bu ilin mayında verdiyi sözə əməl etmir.

O zaman Nikol Paşinyan siyasi rəqiblərinin, o cümlədən Ermənistana rəhbərlik edən adamların təqib olunmayacağına söz verib. R.Koçaryanın və bir neçə Rusiyaya bağlı adamların istintaqa çağırılmaları başqa vəziyyətin yarandığını göstərir. S.Lavrov da deyir ki, Rusiya həmişə Ermənistanı müdafiə edib, onun təhlükəsizliyinin qayğısına qalıb. Belə bir vəziyyətdə Kremlə yaxın olan siyasilərin məhkəməyə cəlb edilməsi, baş nazirin may ayında dedikləri ilə uyğun gəlmir. Həmin kontekstdə S.Lavrov Ermənistan rəhbərliyinin bir daha mövqeyini dəqiqləşdirməsini istəyib.

N.Paşinyanın bütün bunlara cavab olaraq insanları avqustun 17-də İrəvanda mitinqə toplamaq niyyəti onu göstərir ki, S.Lavrov haqlıdır. Rəsmi İrəvan Moskvaya arxadan zərbə endirir. Çünki N.Paşinyan mitinqdə insanlardan dəstək almaqla göstərməyə çalışır ki, məsələ cəmiyyətlikdir, bir siyasətçinin istəkləri ilə bağlı deyil. O halda rəsmi Moskvanın hər bir iradı erməni xalqının iradəsinə qarşı çıxmaq kimi yozulacaq ki, bu da beynəlxalq aləmdə ciddi etirazları meydana çıxara bilər.

Ancaq Rusiya çox böyük dövlətdir və özünün yaratdığı Ermənistanı ovcunun içi kimi tanıyır. Bu səbəbdən N.Paşinyanın sudan quru çıxma ehtimalı minimumdur. Onu cəzalandıra bilərlər.

Bu ehtimalı gücləndirən məqamlardan biri N.Paşinyanın Ermənistanda konstitusiyanı yenidən dəyişib, prezident üsul-idarəsini qaytarmaq niyyətidir. "Regnum" agentliyi bu barədə açıq yazıb. "Lavrov Paşinyana xəbərdarlıq etməyi qərara alıb" başlıqlı məqalədə vurğulanır: "Ancaq biz illüziyalar qurmuruq: Ermənistandan hay-küylü siyasi xəbərlərin sayı artacaq. Başlıca xəbər yeni seçkilər olacaq ki, seçki Paşinyanın legitimliyinin yalnız "küçə" ilə məhdudlaşmadığını sübut etməlidir. Daha vacib xəbər isə Ermənistana prezident üsul-idarəsini qaytaracaq yeni konstitusiyanın qəbul ilə bağlı olacaq. Ermənistanın yeni tam hakimiyyətli prezidenti olmağı isə Paşinyan istəyəcək. Bu nəticələrə küçə legitimliyindən "silkələnib çıxmadan" nail olmaq... mümkün deyildir (bax: Lavrov reşil predupreditğ Paşinəna / Regnum.ru, 1 avqust 2018).

Deməli, Moskva yerində və zamanında xəbərdarlıq edir. Hiss olunur ki, Ermənistanda hadisələr anormal istiqamətdə cərəyan edir. Bu, təbii ki, Moskvanın yanaşmasıdır. Açıq bildirilir ki, N.Paşinyanın əsas məqsədi hakimiyyətə təkbaşına yiyələnməkdir. Bütün oyunları da bunun üçün qurub. Özündən əvvəlki hakimiyyət rəhbərlərini istintaqa çəkməklə əks düşərgənin siyasi iradəsini qırmağa çalışır və onu ictimaiyyətin gözündən salır.

Bu kimi manevrlərdə digər məqsəd Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yanarmış situasiyanı qeyri-müəyyənlikdə saxlamaqdan ibarət ola bilər. Belə ki, vaxtı uzatmaqla, ümumiyyətlə, danışıqlar prosesinin nəticəsiz qalmasına şərait yaradılır. Əgər Ermənistanda hər 5 ildən bir hakimiyyət bu üsulla dəyişsə və hər yeni gələn qüvvə müxtəlif bəhanələrlə vaxt istəsə, onda münaqişə sonsuza qədər həll olunmaz. Həm də ona görə ki, Ermənistanda kiminlə danışmaq lazım gəldiyini müəyyənləşdirmək çətin olar - hər yeni hakimiyyət əvvəlkindən daha etibarsız ola bilər.

Belə çıxır ki, Ermənistan yaxın illərdə silkələnmələrə məruz qala bilər. Bunun fonunda həm Cənubi Qafqazda geosiyasi mənzərədə risklər artar, həm də Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqlarda durğunluq yarana bilər.

**Newtimes.az**

# DSX faktlar üzrə müvafiq tədbirlər həyata keçirir

*4 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınıb*

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir. Bu barədə "SƏS" qəzetinə DSX-nin Mətbuat Xidməti Mərkəzindən məlumat verilib.***

Qeyd olunur ki, DSX əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində son günlərdə 4 əcnəbi vətəndaşın saxta sənədlərlə Azərbaycan Respublikasının dövlət sərhədindən keçmək cəhdinin qarşısı alınıb. Belə ki:

* 24 iyul tarixində Heydər Əliyev Beynəlxalq Aeroportunda Dubay-Bakı reysi ilə uçub gələn 1986-cı il təvəllüdlü Pakistan İslam Respublikasının vətəndaşı Sultana Fakhara Raza Muhammadın sərhəd nəzarətinə təqdim etdiyi sənədlərin saxtalaşdırılması əlamətləri aşkarlanıb, laboratoriya şəraitində dərinləşdirilib, yoxlama zamanı pasportunun məlumat səhifəsinin dəyişdirilməsi, həmçinin, İspaniyaya aid daimi yaşayış kartının saxta olması təsdiqlənib.

* 26 iyul tarixində Heydər Əliyev Beynəlxalq Aeroportunda Bakı-Riqa reysi ilə uçmaq istəyən, özünü İspaniya Krallığının vətəndaşı kimi təqdim edən 1989-cu il təvəllüdlü Mehmood Asad Rasheedin sərhəd nəzarətinə təqdim etdiyi İspaniya pasportunun saxta olmasına şübhə yaranıb və dərinləşdirilib, yoxlama zamanı saxlanılan şəxsin üzərindən Pakistan pasportu aşkarlanıb. Araşdırma nəticəsində, saxlanılmış şəxsin Palistan İslam Respublikasının vətəndaşı olması müəyyən olunub, bu şəxsin Palistan İslam Respublikasının vətəndaşı olması müəyyən olunub, bu






* 30 iyul tarixində Heydər Əliyev Beynəlxalq Aeroportunda Moskva-Bakı reysi ilə uçub gələn Özbəkistan vətəndaşı 1971-ci il təvəllüdlü Ulikova Feruzanın sərhəd nəzarətinə təqdim etdiyi pasportdakı Azərbaycan Respublikasının dövlət sərhədindən keçilməsi barədə tarix-ştampların saxtalaşdırılması müəyyən edilib.

* 6 avqust tarixində "Samur" dövlət sərhədindən buraxılış məntəqəsində Rusiya Federasiyasından Azərbaycan Respublikasına gələn Özbəkistan vətəndaşı 1982-ci il təvəllüdlü Yegenmatov Avezmurat Bayramgeldıyeviçin sərhəd nəzarətinə təqdim etdiyi pasportdakı Azərbaycan Respublikasının dövlət sərhədindən keçilməsi barədə tarix-ştampların saxtalaşdırılması aşkar olunub.

DSX-dən billdirilir ki, qeyd edilən faktlar üzrə müvafiq tədbirlər həyata keçirilir.

**RÖVŞƏN**

# Azərbaycan və Rusiya nəqliyyat sahəsində uğurla əməkdaşlıq edir

***Azərbaycan və Rusiya nəqliyyat sahəsində uğurla əməkdaşlıq edir. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev Rusiya Federasiyasının nəqliyyat nazirinin müavini Alan Luşnikov ilə görüşüb.***



Görüşdə Şahin Mustafayev Azərbaycan-Rusiya əlaqələrinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığın genişlənməsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının fəaliyyətinin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında əməkdaşlığın mühüm istiqamətlərindən biri də nəqliyyat sahəsidir. Azərbaycanın bir sıra beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrinin, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin təşəbbüskarı və fəal iştirakçısıdır.

Şimal-Cənub nəqliyyat dəhlizinin hər iki ölkə üçün əhəmiyyətini qeyd edən iqtisadiyyat naziri bu dəhlizin nəqliyyat sahəsində əlaqələrin genişləndirilməsi və tranzit daşımalarının artırılması sahəsində önəmini vurğulayıb.Rusiya ilə birgə həyata keçirilən Samur çayı üzərində körpünün tikintisinin davam etdiyini bildirən nazir bu layihənin də nəqliyyat və ticarət əlaqələrinin inkişafında, daşımaların artmasında önəmli olacağını qeyd edib.

Rusiyanın nəqliyyat nazirinin müavini Alan Luşnikov Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin uğurlu layihələrdən olduğunu vurğulayıb, hazırda Azərbaycan və Rusiya arasında icrası davam edən nəqliyyat layihələrinə, daşımaların artırılması imkanlarına və nəqliyyat sahəsində əməkdaşlıq perspektivlərinə dair fikirlərini bölüşüb.

## Daxili işlər naziri Şəkidə vətəndaşları qəbul edəcək



Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov avqustun 25-də saat 10:00-da Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarının sakinlərini Şəki Şəhər Rayon Polis Şöbəsində qəbul edəcək.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər. Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

## Rusiya televiziyasının Birinci kanalı "Jara-2018" festivalının nümayişini davam etdirir



Rusiya Televiziyasının Birinci kanalı "Jara-2018" Beynəlxalq Musiqi Festivalının nümayişini davam etdirir. AZƏRTAC Birinci kanalın saytına istinadla xəbər verir ki, festival çərçivəsində keçirilmiş növbəti konsert proqramı televiziya tamaşaçılarına avqustun 10-da təqdim olunacaq.

Xatırladaq ki, avqustun 3-də Rusiya telekanalında festivalın birinci gününün konserti göstərilib. İyulun 26-dan 29-dək Bakıda, "Sea Breeze Resort" istirahət mərkəzində keçirilmiş festivalda 75 ifaçı, eləcə də 1200-dən çox musiqiçi iştirak edib. Festival dörd gün ərzində şəhərin mədəni həyatına özünəməxsus hərarət, coşqunluq gətirib. Bu musiqi bayramında həm yaşlılar, həm də gənclər öz zövqlərinə uyğun musiqini dinləmək imkanı qazanıblar. Festivalın təşkilatçıları müğənni və bəstəkar, Azərbaycanın Xalq artisti Emin Ağalarov, Rusiyanın Əməkdar artisti Qriqori Leps, "Russkoye radio"nun və "Qızıl qrammofon" mükafatının təsisçisi Sergey Kojevnikovdur.

## Ağacların dibindən götürülmüş nümunələrin analizlərinin nəticələri açıqlanıb



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin mütəxəssislərinin Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 1987 ünvanında ağacların dibindən götürülmüş nümunələr üzərində apardıqları analizlərin nəticələri açıqlanıb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, həmin ağacların dibində sulfat və nitrat ionunun miqdarının normadan dəfələrlə artıq olduğu müəyyənləşib. Faktla bağlı məsələyə hüquqi qiymət verilməsi məqsədilə toplanmış materiallar Nərimanov Rayon Polis İdarəsinə göndərilib.

Xatırladaq ki, bir neçə gün əvvəl nazirliyin "Qaynar xətt"inə Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 1987 ünvanında ağacların zədələnməsi və dibinə mənşəyi məlum olmayan maddə tökülməsi ilə bağlı şikayət daxil olub. Ağacları zədələdiyinə görə yaşıllıq ərazinin sahibi Tofiq Balayev barəsində akt və protokol tərtib edilib və o, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən fiziki şəxs qismində 800 manat məbləğində cərimələnib. Həmin ərazidəki ağaclara aqrotexniki qulluq göstərilməsi və qorunub mühafizə olunması məqsədilə T.Balayevə icrası məcburi olan yazılı göstəriş verilib.

# <u>Rusiyalı dirijor:</u> İnsanlar Qəbələ festivalına böyük maraq göstərir

***Qəbələ festivalına dəvət aldığıma görə təşkilatçılara minnətdarlığımı bildirirəm. İkinci gündür ki, bu gözəl şəhərdəyəm. İlk baxışdan da hiss olunur ki, festival çox yüksək səviyyədə təşkil olunub.***

İnsanlar festivala böyük maraq göstərir. Bura dünyanın hər yerindən insanlar gəlir. Festivalın proqramı çox zəngin və rəngarəngdir. Bildiyimə görə, festivalın əvvəlki günlərində burada tanınmış musiqi kollektivləri, ifaçılar çıxış ediblər, müxtəlif janrlı musiqilər ifa olunub. Şadam ki, dünya şöhrətli Yerusəlim Simfonik Orkestrinin konsertlərindən birini idarə etmək dirijor kimi mənə həvalə edilib.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində X Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, rusiyalı dirijor Mixail Xoxlov deyib. Festivalın yüksək səviyyədə keçməsində bu möhtəşəm musiqi layihəsinin təşkilatçısı olan Heydər Əliyev Fondunun rolunu xüsusi vurğulayan rusiyalı dirijor mədəniyyətin qorunması və inkişafına, müxtəlif ölkələr, xalqlar



arasında mədəni əlaqələrin genişlənməsinə göstərdiyi dəstəyə görə Fondun prezidenti Mehriban xanım Əliyevaya dərin təşəkkürünü bildirib.

## "Trampın məqsədi Putinlə münasibətləri normallaşdırmaq deyil"



"Trampın məqsədi Putinlə münasibətləri normallaşdırmaq deyil, dialoq rejimində Rusiyanı istədiyi məcraya salmaqdır". Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.

Onun sözlərinə görə, Rusiya-ABŞ prezidentlərinin Helsinki görüşü az qala, bütün dünyanın gündəliyini zəbt etdi və Avropa ilə İranda maraq daha çox idi: "Əsasən, İran və Suriya ilə əlaqəli qərarlar gözlənilirdi. Peskov Snoudenin ABŞ-a qaytarılacağı ilə bağlı məlumatları qətiyyətlə təkzib etdi. Görüş zamanı iki ölkənin münasibətlərinin normallaşması hədsiz qəliz məsələ olduğu üçün sonda iki prezidentin görüşü yalnız bu prizmadan dəyərləndirildi. Lavrov bu görüşü "superdən də yaxşı" adlandırsa da, ABŞ dövlət katibi Pompeonun fikrincə, prezidentlər Ukrayna məsələsində razılaşmamağı "razılaşdırıblar". Real nəticə isə İsrailin xeyrinə oldu. Hər iki prezident Suriya probleminin həllində İsrailin təhlükəsizliyinin öndə olacağını bəyan etdilər. 1974-cü ildə İsraillə Suriya arasında imzalanmış müqavilənin əsas götürüləcəyini Putin Helsinkidə mətbuat konfransında elan edən kimi, İsrailin baş naziri Netanyahu buna sevinclə münasibət bildirdi".

Politoloq vurğulayıb ki, ABŞ siyasi isteblişmenti Putini qalib, Trampı məğlub elan etdi. V.Putinin mətbuat konfransında səsləndirdiyi "biz Trampın qələbə çalmasında maraqlıydıq" fikrini hətta Ağ Ev stenoqramdan sildi: "Tramp da Rusiyanın seçkilərdəki müdaxiləsinə inanır və yeni seçkilərdə də Rusiyanın müdaxiləsindən ehtiyatlanır. Trampa görə, Rusiya bu dəfə demokratların qələbə çalmasına kömək edəcək. Rusiya və ABŞ prezidentlərinin görüşünün təşəbbüskarı Tramp idi və onun təşəbbüskarlığına da məhz bu kontekstdən yanaşmaq lazımdır. Tramp Putinlə görüşü bütün prizmalardan və yalnız müsbət qiymətləndirir. Eyni zamanda, Rusiyaya qarşı sanksiyaların zəifldilməsini istisna edir. Trampın məqsədi münasibətləri normallaşdırmaq yox, dialoq rejimində Rusiyanı istədiyi məcraya salmaqdır. Trampın NATO sammitindəki davranışı da bunu göstərir. Tramp NATO dövlətlərini ÜDM-lərinin 2 faizini NATO-ya ayırmağa vadar etdi və demək olar ki, buna nail oldu. Almaniyanı çox sərt tənqid etdi; NATO büdcəsinə vəsait ödəməyən Almaniya "Şimal axını-2" layihəsində iştirak etməklə, Rusiyadan qaz almaqla Rusiyanı maliyyələşdirir tezisini irəli sürdü. Prezident Putinlə görüşü ərəfəsində Rusiyanın Avropaya qaz satmasına ciddi əngəllər yaratdı. Trampın dediyinə görə, Avropa ABŞ-dan sıxılmış qaz almaq üçün 11 terminal hazırlayır. Bütün bunlar Trampın Rusiya ilə münasibətini normallaşdırmaq niyyətinin olmadığını sübut edir".

M. Əhmədoğlunun fikrincə, dialoqa cəhd etməkdə məqsəd Rusiyanın siyasətini Çin və KXDR üzərinə yönəltməkdir, və ya bu istiqamətdə neytrallaşdırmaqdır: "KXDR ABŞ-a xeyli yaxınlaşıb, Tramp buna nail olub. Trampın KXDR-i özünə yaxınlaşdırmaqda əsas rıçaqlarından biri Rusiyanı KXDR-ə qarşı sanksiyalara vadar etməsidir. ABŞ-ın sanksiya siyasətini rədd edən Rusiya ABŞ-ın KXDR-ə qarşı sanksiya siyasətinə qoşuldu. Tramp və Pompeo məhz bundan ötrü Rusiyaya minnətdarlıq bildirdilər. KXDR Rusiyanın belə siyasətini anlamır. Trampa KXDR istiqamətində Rusiyanın belə ziddiyyətli siyasət aparması ən azı yaxın 1 ildə lazımdır. KXDR hal-hazırda RF-dən küsmüş vəziyyətdədir. İki ay bundan öncə KXDR ətrafındakı qeyri-müəyyənliklər çələngi ABŞ-ın ziyanına, Rusiyanın lehinə idi. İndi artıq vəziyyət əksinə dəyişib. ABŞ Çinə qarşı ticarət müharibəsindədir. Belə vaxtda Rusiyanın Çinlə birləşib antiABŞ kursu aparması Trampı çətin vəziyyətə sala bilər. Çinlə Rusiya arasındakı münasibətlər məhz bu istiqamətdə inkişaf edirdi. Trampın Putinlə hərarətli ritorikası Çini də çaşbaş salıb".

## Paşinyan Nazarbayevlə nədən danışıb?



Ermənistanın baş naziri Nikol Paşinyan və Qazaxıstan prezidenti Nursultan Nazarbayev arasında telefon danışığı olub. SİA Ermənistan mətbuatına istinadən xəbər verir ki, dövlət başçıları telefon danışığı zamanı həmçinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) da müzakirə ediblər. Telefon danışığı zamanı Paşinyan və Nazarbayev ikitərəfli münasibətlərlə yanaşı KTMT-nin fəaliyyətini də müzakirə ediblər.

Qeyd edək ki, Ermənistanda Rusiyanın rəhbərliyi ilə yaradılmış, əsasən NATO ilə mübarizəyə hesablanmış KTMT-nin baş katibi Yuri Xaçaturov haqda həbs qətimkan tədbiri seçilib. Xaçaturov Ermənistan dövləti tərəfindən alyansa rəhbərlik etmək üçün təqdim edilib.

## Qabil Hüseynli: "Paşinyan dialoq mədəniyyətinə yiyələnməlidir"

"Ümumiyyətlə, Ermənistanda gedən proseslər işğalçı ölkənin cəmiyyətində hədsiz dərəcədə ziddiyyətlərin olduğunu göstərir. Bu cəmiyyəti isə normal səviyyəyə qaldırmaq mümkün deyil". Bunu SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloqun sözlərinə görə, əgər bu cəmiyyət qonşu dövlətlərlə işğal ideyası ilə oturub-durursa və onun ideoloji əsasını anti-bəşər kampaniyasına sövq edirsə onların təmizlənməsi prosesi xeyli çətin olar: "Mən buna inanmıram. Ermənistanda proseslər əvvəlki məcrada davam edəcək. Çünki bu, erməni xalqının xislətindən xəbər verir.

Ermənistanın baş naziri Nikol Paşinyan dialoq mədəniyyətinə yiyələnməlidir. Onun kobud, yöndəmsiz və radikal ritorikaları Ermənistanın quyusunu daha dərindən qazmaqdan başqa, heç nəyə xidmət etmir. Qəribədir ki, erməni xalqı qəflət yuxusundan ayılmaq istəmir. Bununla, o da özünü, bütövlükdə fəlakətə sürükləyir. Ancaq misal var - "özü yıxılan, ağlamaz!".

## İlin sonuncu Günəş tutulması hadisəsi avqustun 11-də baş verəcək

Cari ilin sonuncu Günəş tutulması hadisəsi avqustun 11-də baş verəcək. Bu təbiət hadisəsi (qismən tutulma) Bakı vaxtı ilə saat 12.02-də başlanacaq, saat 13.46-da maksimum səviyyədə olacaq, saat 15.30-da başa çatacaq. Bu barədə AZƏRTAC-a Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından məlumat verilib. İlin sonuncu Günəş tutulması Rusiyanın şimal-şərqini, Şimali Amerika, Skandinaviya və Çini əhatə edəcək.



## Muxtar respublikada əkin sahələrinə 29 milyon kubmetr su verilib



Muxtar respublikada əkin sahələrinin suvarma suyu ilə təmin olunması, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə tikinti, təmir və bərpa işləri iyul ayında da davam etdirilib, su bölgüsünə və ondan səmərəli istifadəyə nəzarət artırılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, bu dövrdə 8 kilometr yeni suvarma boru xətti çəkilib, 5 kilometr mövcud içməli su xətti təmir-bərpa olunub, 10 kilometr beton, torpaq kanal və 24 kilometr ara arxlar lildən təmizlənib. Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 29 milyon kubmetr su verilib, bunun müqabilində 24 min 678 hektar torpaq sahəsi suvarılıb.

Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilib, müxtəlif diametrli borularla 500 metr magistral, 800 metr ana, 6 min metr paylayıcı boru xətti çəkilib. "Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində də işlər davam etdirilib. Hazırda Şahbuz şəhər çirkab sutəmizləyici qurğusunda avadanlıqlar quraşdırılır, elektrik xətləri çəkilir, ətrafında abadlıq işləri aparılır.

## Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib




Dünən Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Şuradan SİA-ya verilən məlumata görə, toplantını açan komissiya sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli gündəlikdəki məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib.

Komissiya üzvləri ilk olaraq "Altes" Şirkətlər Qrupunun"1 news.az"İnformasiya Agentliyində şirkət barədə dərc edilmiş yazılarla bağlı şikayətini araşdırıblar. Şirkət təmsilçisi saytda yayımlanmış tənqidi yazılarda balans prinsipinin pozulduğunu, şirkətin mövqeyinin işıqlandırılmadığını bildirib."1 news.az" təmsilçisi isə şirkətin mövqeyinin öyrənilməsi üçün müraciət etdiyini, lakin material hazırlanan anda lazımi rəyi ala bilmədiyini bildirib. Tərəflər şirkətin mövqeyini dərc etmək barədə razılığa gəliblər.

Müzakirəyə çıxarılan ikinci məsələ "Keşlə Futbol Klubu" PFK-nın "futbolinfo.az" və "futbolpress.az" saytlarına qarşı şikayəti olub. PFK Müşahidə Şurasının şikayəti qeyd edilən saytlarda yayımlanan tənqidi materiallarda "qarşı tərəfin mövqeyinin dərc edilməməsi", "PFK Müşahidə Şurası sədrinin işgüzar nüfuzuna xələl gətirilməsi" olub. Məsələnin müzakirəsi zamanı müəyyən edilib ki, "futbolinfo.az" və "futbolpress.az" saytlarında yayımlanan və şikayət doğurmuş yazılarda "işgüzar nüfuza xələl gətirilməsi" hallarına yol verilməsi barədə iddialar təsdiqini tapmır. Balans prinsipinin pozulması halları mövcuddur ki, bunun aradan qaldırılması üçün sayt təmsilçilərinə tövsiyyələr verilib. "Keşlə Futbol Klubu" PFK-ya isə media ilə əlaqələrində daha açıq olmaq, operativliyi artırmaq üçün daha müasir vasitələri tətbiq etmək tövsiyyə edilib.

Zərdab rayon sakini N.Səmədovanın jurnalist B.Eminliyə qarşı şikayətini araşdıran Komissiya müəyyən edib ki, tərəflər arasında mübahisə doğuran məsələyə baxılması Mətbuat Şurasının funksiyalarına aid deyil. Tərəflərə tövsiyyə edilib ki, uyğun qurumlara müraciət etsinlər.

## Deputat: "Paşinyan sələflərinin yolu ilə getməməlidir"



"Dünya praktikasında da hərbi xunta rejimlərinin sonu Ermənistandakı kimi olub. Ermənistandakı xunta rejiminin fərqi ondan ibarət olub ki, xuntanı idarə edənlər Azərbaycana qarşı ədalətsizlik ediblər, əlləri günahsız insanların qanına batıb. Qaniçənlik o qədər güclənmişdi ki, öz vətəndaşlarına qarşı da yönəlmişdi". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, həmin rejimi təmsil edən köçəryanlar və sarkisyanlar komandalarının məqsədi o olub ki, hansı yolla olursa-olsun hakimiyyəti əllərində saxlasın, ölkəni talan etsin: "Amma gec-tez ədalət bərqərar olunur. Düşünürəm ki, bu gün Ermənistanda cərəyan edən hadisələr də bu istiqamətdə Paşinyan hökumətinin ilk addımlarıdır. Paşinyan əgər ölkəsini və öz gələcəyini düşünürsə başladığı prosessləri axıra qədər aparmalıdır, özündən əvvəlkilərin yolu ilə getməməli və dərs götürməlidir. Bu gün cəlladları, terroristləri məhkəmə qarşısına çıxarmalı və layiqli cəzalarını verməlidir. Başladığı təmizləmə işlərin davamı olaraq "Qarabağ klanı"nı tam zərərsizləşdirəndən sonra Azərbaycanla masa arxasında oturaraq illərdir həll olunmayan problemlərin həlli istiqamətində cəsarət tapmalıdır. Əgər Paşinyan Ermənistanın gələcəyini düşünürsə, ancaq bu yolu tutmalıdır".

# 10-cu sammit: BRİCS meydan oxuyur

***Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika Respublikasını özündə birləşdirən təşkilat (BRİCS) getdikcə daha israrla ümumdünya proseslərinə təsir etməyə başlayıb. Son illər ardıcıl olaraq sammitlər keçirib və hər dəfə də maraqlı qərarlar qəbul edib. Onun 10-cu yubiley sammitinə Cənubi Afrika Respublikası ev sahibliyi edib. Burada liderlər çox əhəmiyyətli beynəlxalq məsələləri müzakirə edib, onları yekun bəyannamədə vurğulayıblar. Sənəddə siyasi, geosiyasi, iqtisadi, ticari, humanitar və təhlükəsizlik məsələləri yer alıb. Müxtəlif regionlardakı münaqişələrin həllinə ortaq mövqe nümayiş etdirilib. Tədbirdə alınan qərarlar göstərir ki, BRİCS yeni səviyyədə qlobal məsələlərə təsir göstərmək əzmindədir. Təşkilat daha nüfuzlu olmağın yollarını arayır. Mümkündür ki, o, tərkibini genişləndirsin. Bütün bunlara görə də, ekspertlər Yohannesburqdakı sammitin mümkün geosiyasi nəticələri üzərində geniş dayanırlar. Bu aspektdə bir sıra aktual məqamları təhlil etməyə ehtiyac görürük.***




## Qlobal proseslərə təsir: yeni güc mərkəzi yaranır?

Cənubi Afrika Respublikasının Yohannesburq şəhərində BRİCS-ə üzv ölkələrin 10-cu yubiley sammitinin bəyannaməsi qəbul edilib. Bu təşkilat 2001-ci ildə yaradılıb. İlk üzvləri Braziliya, Rusiya, Hindistan, Çin olub. Maraqlıdır ki, bu termin-akronimi 2001-ci ildə ABŞ-ın qabaqcıl investisiya banklarından olan "Goldman Sachs"ın qlobal iqtisadi tədqiqatlar şöbəsinin rəhbəri Cim O'Nill təklif edib. Onun məqsədi bununla dünyanın dinamik inkişaf edən dörd iqtisadiyyatını vurğulamaq olub. 2011-ci ildə təşkilata Cənubi Afrika Respublikasının daxil olması ilə adı BRİCS-ə çevrilib.

10 ildir ki, mövcud olmasına baxmayaraq, BRİCS real fəaliyyətə 2006-cı ildən başlayıb. Onun təşəbbüskarı Vladimir Putin olub. BRİCS-ə daxil olan ölkələrin rəhbərlərinin müntəzəm görüşü 2010-cu ildən başlayır. Həmin ildən bu yana təşkilatın hər il yüksək səviyyəli sammitləri təşkil olunur. Eyni zamanda, həmin tədbirlərdə qlobal siyasət, iqtisadiyyat, ticarət, maliyyə və hərbi təhlükəsizliklə bağlı dünyanı maraqlandıran məsələlər müzakirə edilir.

2017-ci ildə Çində keçirilən 9-cu sammitdə isə konkret olaraq yeni dünya düzəni, dünya iqtisadiyyatında proteksionizmə qarşı mübarizə, ticarətdə bütün dövlətlər üçün bərabər şəraitin yaradılması, yeni beynəlxalq valyutanın formalaşdırılması və ortaq bankçılığın inkişafı kimi məsələlər müzakirə edildi. Hətta həmin tədbirdə Rusiya və Çin qlobal proseslərdə strateji qüvvələr balansının formalaşdırılması zərurətindən də bəhs edib, bunun təminatçısı kimi Çin və Rusiyanın çıxış etdiyini vurğuladılar.

Görünür, bu kimi özəlliklərə görə, 10-cu sammit ərəfəsi ABŞ Prezidenti Donald Tramp iştirakçılara müraciət edərək, "dünyanın geosiyasi, iqtisadi və maliyyə tarazlığını" pozmamağa çağırdı. Amerikanın belə reaksiya verməsini ekspertlər ciddi hadisə adlandırırlar. Çünki BRİCS-ə daxil olan ölkələrin imkanları yüksək səviyyədədir. Belə ki, dünya ərazisinin 29 faizi onlardadır. Əhalisi isə dünya əhalisinin 42 faizini təşkil edir. 2016-cı ildə BRİCS-ə üzv olan ölkələr dünyada iqtisadi inkişafın 50 faizdən çoxunu təşkil ediblər. Onların ÜDM-i də dünya ÜDM-nin 23 faizi qədər olub. Dünya ticarətinin 16 faizi və sərmayələrin 12 faizi BRİCS-ə aiddir.

Bunlara son illər təşkilata üzv olan dövlətlərin xarici siyasətdə, hərbi sahədə və maliyyədə ortaq hərəkət etmək barədə razılığa gəlməsini də əlavə etmək gərəkdir. Bu, müəyyən siyasi iradənin formalaşdığından xəbər verir. Doğrudur, Vaşinqtonun təzyiqi ilə Braziliya bir qədər kənara çəkilməyə meyil etdi, lakin bu da davamlı olmadı. İndi BRİCS dünya miqyasında əsas geosiyasi güc olmaq iddiasındadır.

Maraqlıdır ki, bu təşkilatın cəlbediciliyi də artır. Türkiyə ona maraq göstərir. Yohannesburq sammitində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak edib, Çin, Rusiya, Braziliya və Hindistan rəhbərləri ilə müzakirələr aparıb.

Ekspertlər 10-cu sammitin yekun bəyannaməsində vurğulanan əsas məqamlara diqqət yetirirlər. Sənəddə iştirakçılar bərabərlik və demokratiya prinsiplərinə sədaqətliliyi qeyd edib, beynəlxalq münaqişələri sülh yolu ilə həll etməyə çağırıblar (bax: Lideru stran BRİKS prinəli deklaraüiö po itoqam deseti let rabotı / RİA Novosti, 26 iyul 2018).

## Siyasət və ticarət: beş liderin təşəbbüsləri

Suriya və Yaxın Şərq məsələsi bəyannamədə ciddi yer alıb. Sənəddə Suriyadakı terror təşkilatlarına qarşı mübarizədə birliyin əhəmiyyəti qeyd edilir. Lakin bu, BMT-nin müvafiq qətnamələrinə uyğun aparılmalıdır. İştirakçılar kimyəvi silahın kim tərəfindən istifadə edilməsindən asılı olmayaraq, onu ciddi qınayırlar. Bütün münaqişələrin müstəqil, hərtərəfli, obyektiv və şəffaf təhqiq edilməsinin əhəmiyyəti vurğulanıb.

Sənəddə digər məsələ kimi Şimali Koreya göstərilib. Şimal-Şərqi Asiyada nüvə silahının məhv edilməsinin aktuallığı vurğulanıb. Bu zaman situasiyanın sülh, diplomatiya və siyasi yolla həllinin vacibliyi ayrıca qeyd edilib. Görünür, BRİCS Koreya yarımadasındakı vəziyyətə başlıca olaraq Çin və Hindistanın maraqları müstəvisində yanaşır. Həmin ölkələr ABŞ-ın bu və ya digər regionda hegemonluğunu istəmirlər. Təbii ki, Koreya yarımadası daha geniş miqyasda Asiya-Sakit okean hövzəsi regionunda ABŞ-Çin qarşıdurması kontekstində maraq doğurur. BRİCS bu problemə laqeyd qalmadığını nümayiş etdirir.

Ekspertlər üçün təşkilatın dünya iqtisadiyyatı və ticarəti ilə əlaqəli qərarları maraqlı idi. Çünki son zamanlar dünyanı qlobal ticarət müharibəsi narahat edir. Vaşinqton demək olar ki, bütün geosiyasi güc mərkəzlərinə qarşı müharibə elan edib. Onların sırasında BRİCS-ə daxil olan Rusiya, Hindistan və Çin də var. Bundan başqa, Amerika Avropa ölkələrinə qarşı da sərt mövqe nümayiş etdirirdi. Lakin Amerikanın şərtlərini Brüsselin qəbul etdiyi haqqında informasiyalar yayılıb. Öz növbəsində Vaşinqton da Avropa ölkələrindən olan avtomobillərə, polad və alüminiuma olan əlavə vergini ləğv etməlidir. Bu halda ticarət müharibəsində ABŞ-ın əsas rəqibləri məhz BRİCS üzvləri olur.

Təşkilatın yekun bəyannaməsində dünya ticarətindəki çətinliklər vurğulanır və Ümumdünya Ticarət Təşkilatı üzərinə düşən vəzifələri yerinə yetirməyə çağırılır. BRİCS-ə üzv ölkələr hərtərəfli ticarət sisteminin qanun bazasının inkişafında iştirak etmək haqqında razılığa gəliblər. Həmçinin vurğulanır ki, dünya iqtisadiyyatının davamlı inkişafı üçün fəaliyyətin koordinasiya edilməsinə çağırış mövcuddur. Burada o da qeyd edilir ki, bu gün dünya iqtisadiyyatının dağılma riski vardır.

Bunlarla yanaşı, BRİCS üzvləri iqtisadiyyata təhlükə yaradan bir sıra problemləri də müəyyənləşdiriblər. Onların sırasında ticarət münaqişələrinin güclənməsi, geosiyasi riskləri yeni səviyyəyə yüksəlməsi, xammalın qiymətinin geniş miqyasda dəyişməsi, yüksək dövlət borclarının mövcudluğu və qeyri-bərabərlik ayrıca vurğulanır.

Bütün bunların öhdəsindən gəlmək üçün BRİCS ölkələri siyasi dialoqa və bütün istiqamətlərdə koordinasiyaya çağırırlar. Bəyannamədə bunlarla yanaşı yeni silahlanma yarışının başlamasından və kosmosun hərbi ixtilaf obyektinə çevrilməsindən narahatlıq ifadə olunub. BRİCS ölkələri əminliklərini ifadə ediblər ki, kosmosda silahsızlaşdırma bütövlükdə dünyada sülhün qorunması və təhlükəsizliyin təmin edilməsi baxımından çox faydalı ola bilər.

Nəhayət, yekun bəyannamədə korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizənin aktuallığı xüsusi vurğulanıb. Üzv ölkələr dünya dövlətlərini korrupsiyada ittiham olunan insanlara sığınacaq verməməyə dəvət edib, ədalət mühakiməsindən qaçanların ekstradisiyasını tələb ediblər.

Bütün bunlar onu göstərir ki, BRİCS mövcud iqtisadi, geosiyasi və hərbi vəziyyətdə yeni səviyyədə özünü təsdiq etməyə start verib. O, bir tərəfdən öz üzvlərini daha sıx birləşdirməyə çalışır, digər tərəfdən isə dünya miqyasında ABŞ-a qarşı mübarizəni şiddətləndirməyə cəhd edir. BRİCS tam mənası ilə dünya siyasəti, iqtisadiyyatı, ticarəti və hərbisinə ciddi təsir edə bilən təşkilata çevrilmək xəttini seçib.

BRİCS bu məqsədlərinə çatmaq üçün əlavə üzvlər qəbul edə bilərmi? Bu variant istisna deyil. Hər bir halda, Türkiyə Prezidenti R.T.Ərdoğanın Yohannesburqa səfəri və orada aktiv müzakirələr aparması təsirsiz ötüşməyəcək. Görünür, dünya miqyasında geosiyasi mübarizə daha da şiddətlənməyə meyillidir. ABŞ-ın özü də bu əhval-ruhiyyədədir. Vaşinqton kimsəyə güzəşt etməmək də israrlıdır. Bu halda, qlobal proseslərin taleyi məsələsi aktuallaşır. Böyük güclər dəyişmək istəmir, yenə də rəqabətə, yarışa və öz maraqlarını təmin etməyə üstünlük verirlər. Ona görə də, köhnə ziddiyyətlər dəyişmir, üzərinə yeniləri gəlir.

**Newtimes.az**

# QHT-lər dövlət maraqlarına xidmət etməlidirlər

## *Əks halda onların fəaliyyətləri qanunlara zidd hesab edilə bilər*

***Məlumdur ki, QHT-lər hər hansı bir ictimai maraqların təmin edilməsi istiqamətində birləşmiş könüllü qruplardır. Belə ki, bu qrupların fəaliyyəti onların nizamnaməsi ilə tənzimlənir. Yəni hər bir QHT-nin özünün nizamnaməsi var və onun bütün fəaliyyəti, məhz həmin nizamnamə üzrə - siyasətdən və biznesdən kənar qurulur. O nizamnamədə də, məhz ictimai maraqlar, hansısa bir sosial problemin həlli, yəni hansısa humanitar yönümlü bir fəaliyyətlə məşğul olmaq orada təşkil olunmayıb. Digər tərəfdən, nizamnamədə heç də siyasi fəaliyyət, hər hansı bir siyasi düşərgənin missiyasına xidmət etmək kimi fəaliyyət təsbit olunmur. Belə ki, QHT-lər haqqında qanunda da QHT-lər seçkili orqanlarda iştirak edə bilməzlər. Beləliklə, həm də, belə nəticəyə gələ bilərik ki, QHT-lər öz enerjili resurslarını cəmiyyətin ayrı-ayrı təbəqələrinin problemlərinin və yaxud digər məsələlərin həllinə yönəldən və insanlığa xidmət edən humanitar fəaliyyətdir.***

Lakin təəssüf ki, bəzi QHT-lər öz nizamnamə məqsədlərindən kənara çıxaraq, siyasi fəaliyyətlə məşğul olmağa cəhd göstərir və yaxud ayrı-ayrı siyasi partiyaların mövqelərindən çıxış edirlər. Yəni ayrı-ayrı siyasi partiyaların çirkin məqsədlərinə çatmaları üçün onlara müəyyən dəstək verirlər. Bu cür hərəkətlər qanunla yolverilməzdir. O cümlədən, həmin QHT-lər özlərinin nizamnaməsinin müddəalarına zidd olan fəaliyyət yolu tutmuş olurlar. Ümumiyyətlə, QHT-lərin fəaliyyəti siyasi məqsədlər deyil, birlik üzvlərinin, cəmiyyətin, icmanın mənafeyinə xidmət edən və hətta orda əldə olunan gəliri belə bölüşdürməyən bir humanitar fəaliyyət növüdür. Eləcə də, QHT-lər cəmiyyətə, vətəndaşa və dövlətə xidmət edən təşkilatlar olmalıdırlar. Belə olan halda, QHT-lərin fəaliyyəti yüksək qiymətləndirilir və QHT-lərə ehtiyac cəmiyyətdə günü-gündən artar. İctimai rəy bu gün də bunu hiss edir. Misal üçün, Azərbaycanın bir sıra QHT-ləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ailə məsələləri, ətraf mühitlə, sosial məsələlərlə, təhsilə, mədəniyyətimizlə, iqtisadi məsələlərlə, əlillərlə, qadın-uşaq məsələləri ilə bağlı və s. kimi yüzlərlə layihələr həyata keçiriblər ki, bu da cəmiyyətimizin inkişafına öz töhfəsini verməkdədir.

Yuxarıda da qeyd edildiyi kimi, Leyla Yunus, Emin Hüseynov və başqalarının fəaliyyəti artıq cəmiyyətimizə bəllidir. Artıq bunların fəaliyyətlərini QHT adlandırmaq da doğru deyil. Çünki belələri öz fəaliyyətlərində cəmiyyətə və dövlətə qarşı qərəzli mövqe nümayiş etdirirlər. Onların nümayiş etdirdikləri siyasi xətlərində açıq görünür ki, bunlar ölkəmizə qənim kəsilmiş şəxslərdir. Adları çəkilən bu şəxslər Azərbaycan dövlətinin əldə etdiyi uğurlarına paxıllıq hissi ilə yanaşaraq, bu uğurlara nə isə bir kölgə salmağa çalışırlar. Ancaq onların özlərinə tərəfdaş, xarici maraqlı fondlardan dəstək toplamaları üçün etdikləri canfəşanlıqların heç biri öz bəhrəsini verməyəcəkdir. Hətta inanmaq da olmaz ki, sağlam düşüncəli, dövlətinin maraqlarına xidmət edən hər hansı bir QHT L.Yunus, E.Hüseynov, Emin Milli və sair bənzər simasızların və pozucuların yalanlarına uysun. Belə şəxslərin fəaliyyətləri tamamilə qanuna ziddir.

Bu arada QHT rəhbərləri də bu kimi hallara öz münasibətlərini bildiriblər. Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilova görə, burada bir neçə məqam vardır. Belə ki, dağıdıcı müxalif partiyalarının ətrafında olan siyasiləşmiş QHT-lər, ona görə yaradılmışdır ki, onların vasitəsilə xaricdən qrant alaraq, siyasi məqsədlərə sərf edilsin: "Dəfələrlə şahidi olmuşuq ki, maliyyə bölgüsü zamanı da bunların arasında daim ixtilaflar yaranıb. Digər bir məqam isə, artıq o QHT-lər mövcud qanunvericiliyə uyğun olaraq xaricdən mənbəyi və məqsədi məlum olmayan qrantları alsalar da, onu Azərbaycanda həyata keçirməkdə çətinlik çəkirlər. Çünki onlardan şəffaflıq tələb olunduqda, maliyyəni nəyə sərf etdiklərini hesabat şəklində verə bilmirlər. Bu da, artıq həmin QHT-in maliyyə qazanmaları istiqamətində çətinlik yaratdığından, aralarında konfliktlərin yaranmasına gətirib çıxarır. Çünki bunların məqsədi maliyyə vəsaiti qazanmaq olduğundan, bu prespektiv artıq real olmadıqda, əməkdaşlıqları da pozulur və aralarında konflikt yaranır ki, bu da qarşılıqlı ittihamlarla müşahidə olunur. Bir məqam da odur ki, bu siyasi qurumlar uzun muddət ancaq vəd verməklə bəzi siyasiləşmiş QHT-ləri ətraflarında saxlamağa cəhd edirdilər. Həmin QHT-lər, artıq aldandıqlarını başa düşürlər ki, bu da onların ittihamlarla çıxış etmələrinə gətirib çıxarır. Ancaq ümumiyyətlə, götürsək, bunları bir-birinə bağlayan hər hansısa bir milli maraq və ya ideya olmadığına görə, aralarında qarşılıqlı ittihamları və konfliktlər çox müşahidə olunacaq".

Korrupsiyaya qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümova görə isə, xaricdə olan qüvvələr də heç vaxt siyasiləşmiş QHT-lərə boş-boşuna maliyyə vəsaiti ödəməzlər: "Xarici maraqlı dairələr məkrli planlarının həyata keçirilməsi üçün müxalifətyönlü QHT-lərə pul buraxırlar. Qarşılıqlı ittihamlar və münasibətlərin gərginləşməsi də daha çox maliyyə yardımı əldə etmək üstündə baş verir. Ümumiyyətlə, onları birləşdirən və ayıran səbəb, məhz maliyyə məsələləridir".

Beləliklə, nəticəyə gəlmək olar ki, özlərini müxalifət adlandıran və xaricdən maliyyələşən qüvvələrlə siyasiləşmiş QHT-lər eyni yerdən-mərkəzdən idarə olunurlar. Xaricdə olan havadarları bunlara siyasiləşmiş QHT-lər vasitəsi ilə pullar ötürürlər ki, ölkəmizdə xoşagəlməz bir vəziyyət yaratsınlar. Amma onların, nə etmələrindən asılı olmayaraq, heç vaxt istər xarici qüvvələrin, istərsə də radikal müxalifətin ölkəmizlə bağlı məkrli niyyətləri həyata keçməyib və bundan sonra da keçməyəcəkdir. Müxalifət partiyaları, həm də siyasiləşmiş QHT-lərə eyni mərkəzlərdən tapşırıqlar verilir. Eyni zamanda, onların fəaliyyətləri, bütövlükdə, milli maraqlarımıza zidd olan bir hərəkətdir. Bu baxımdan, belə məsələlərdə QHT-lər diqqətli olmalıdırlar. Yəni yalan və şər-böhtan xarakterli siyasi çağırışlara meyilli olmamalıdırlar. Hər bir QHT öz nizamnaməsini bilməli və nə üçün fəaliyyət göstərdiyini bir daha aydınlaşdırmalıdır.

***Rövşən NURƏDDİNOĞLU***

# Dövlət Məşğulluq Xidmətinin qabaqcıl Avropa təcrübəsi əsasında yeni xidmət modeli yaradılır

Hazırda qurulmaqda olan məşğulluq portalı Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə inteqrasiya şəraitində fəaliyyət göstərəcək. Bu, hər hansı vətəndaş işdən azad olunduğu, yəni onunla əmək müqaviləsinə xitam verildiyi anda artıq işaxtaran vətəndaş kimi məşğulluq portalında dərhal qeydə alınmasına və vakant vəzifənin təqdim olunmasına imkan verəcək. Bu barədə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev əhalinin səmərəli məşğulluğunun təmin olunması, işsiz və işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirlərin səmərəliliyinin və şəffaflığının artırılması istiqamətində təkliflərin hazırlanması üzrə nazirlikdə yaradılmış işçi qrupunun iclasında bildirib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nazir aparılan islahatların əsas məqsədlərindən birinin dövlət məşğulluq xidmətlərinin keyfiyyətinin artırılması, bu sahədə xidmətlərin çevikliyinin, işsiz və işaxtaranlara asan əlçatanlığının təmin olunması olduğunu vurğulayıb. Onun sözlərinə görə bu istiqamətdə mühüm addım kimi məşğulluq xidmətlərinin elektron müstəvidə qurulması, məşğulluq portalının yaradılması işləri davam etdirilir. Eyni zamanda, müvafiq Tvinninq layihəsi çərçivəsində avropalı ekspertlərlə birgə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti üzrə Avropanın qabaqcıl təcrübəsi əsasında yeni xidmət modelinin yaradılması təmin olunacaq.

S.Babayev diqqətə çatdırıb ki, aparılan işlər çərçivəsində "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" (2018-2030-cu illər)" layihəsinin artıq təkmil şəkildə son versiyası hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Həmçinin "Məşğulluq haqqında" Qanuna əsasən, Dövlət Məşğulluq Xidməti üçün xidmət keyfiyyətinin ölçülməsi indikatorları hazırlanıb. Peşə standartlarının hazırlanması, təsdiqi və tətbiqi ilə bağlı normativ sənədlər paketinin formalaşdırılması üçün zəruri layihələr hazırlanaraq aidiyyəti dövlət orqanlarına razılaşdırmaq üçün göndərilib.

# Tərəvəzçilik İnstitutunun bazasında tərəvəz toxumu ilə bağlı şəhərcik salınır

Tərəvəzçilik İnstitutunun bazasında tərəvəz toxumu ilə bağlı şəhərcik salınır. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində kənd təsərrüfatı nazirinin müavini İlham Quliyev deyib. O bildirib ki, ölkədə bütün növ toxumlara tələbat var. Respublika ən çox taxılçılıq sahəsində bitki sortlarını ilə özünü təmin edə bilir. Bu təqribən 60 faiz təşkil edir: "Tərəvəzçilik İnstitutunun bazasında 6 hektar örtülü, 30 hektar isə açıq sahədə böyük bir şəhərcik salınır, bunun da nəticəsində ölkədə tərəvəz toxumuna olan tələbatın 100 faiz ödənilməsi nəzərdə tutulur".



İ.Quliyevin sözlərinə görə, kartof toxumu ilə bağlı tədbirlər də həyata keçirilir. Ölkəmizi xəstəliyə davamlı kartof toxumu ilə təmin etmək üçün həmin institutun bazasında böyük kartofçuluq üzrə toxumçuluq təsərrüfatı yaradılır. Əsas məqsəd respublikanın toxuma olan tələbatını daxili imkanlar hesabına ödəməkdir.

# "Azərişıq" "ASAN xidmət" və "ASAN Kommunal" ilə abonentlərinə göstərdiyi xidmətlərdə yenilik edib

"Azərişıq" ASC-nin "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzləri vasitəsilə abonentlərə göstərdiyi xidmətlərdə yenilik edilib. Artıq evə və ya bağa elektrik enerjisi çəkdirmək vahid tariflə hesablanacaq, bir fazlı xətti üç fazlıya çevirmək yalnız "ASAN xidmət" vasitəsilə həyata keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə avqustun 7-də "Azərişıq"da keçirilən mətbuat konfransında ASC-nin perspektiv inkişaf və "ASAN xidmət"lə iş idarəsinin rəisi Elsevər Rüstəmli deyib.

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Onun sözlərinə görə, bir neçə gün əvvəl Nazirlər Kabineti əhali abonentlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı qərar qəbul edib və həmin qərara əsasən, evinə, bağına və ya həyətinə 20 kilovata qədər mövcud 0,4 kilovoltluq şəbəkədən, 1 fazlı xətlə elektrik enerjisi çəkdirmək istəyən abonentlər üçün qoşulma haqqının vahid məbləği müəyyən edilib: "Əvvəlki qayda ilə müqayisə etdikdə birmənalı şəkildə demək olar ki, məişət abonentlərinin elektrik şəbəkəsinə qoşulması üçün tariflər ucuzlaşdırılıb. Paralel olaraq "Azərişıq" ASC-nin ötən ayın sonunda tətbiq etdiyi başqa bir yeniliyə görə, artıq istehlakçıların enerji təchizatı sxemi dəyişdirilməsi - bir fazalıdan üç fazlıya və ya əksinə, abonentlərə yeni kodların verilməsi, sahibkarlıq obyektlərində istənilən səbəbdən sayğac əvəzlənməsi yalnız və yalnız "ASAN xidmət" və ya "ASAN Kommunal" mərkəzləri vasitəsilə həyata keçirilir".

# Erməni iranşünası Ara Papayanın iddiasını rədd etdi

*Vardan Voskanyan: "Yerevanın İran-ABŞ münasibətlərinin normallaşdırılması meydanına çevrilməsi mümkünsüzdür"*

***"Hazırkı vaxtda Ermənistanın İran-ABŞ münasibətlərinin normallaşdırılması üçün meydan seçilməsi real deyil". Bu barədə Birinci İnformasiya Portalına Yerevan Dövlət Universitetinin İranşünaslıq kafedrasının rəhbəri Vardan Voskanyan məlumat verib. Belə ki, bu günlərdə ABŞ prezidenti Donald Tramp İran prezidenti Həsən Ruhani ilə heç bir şərt irəli sürülmədən görüşə hazır olduğunu bildirmişdi. Eyni zamanda, İran prezidentinin aparat rəhbəri Həmid Əbutalibi öz "tvitter" səhifəsində yazıb ki, Tehran ABŞ-la danışıqları bərpa etməyə hazırdır, əgər Vaşinqton nüvə razılaşmasına geri dönərsə.***

**"Ermənistanın xarici məsələlərdə aktivliyi məhduddur və biz, çətin ki, ABŞ və İran kimi iki nəhəng dövlətin danışıqları üçün meydan rolunu oynaya bilək"**



İranşünasın sözlərinə görə, ABŞ bir tərəfdən ritorikasını sərtləşdirsə də, digər tərəfdən, danışıqların mümkünlüyünə açılan qapını birdəfəlik bağlamayıb. Lakin Vardan Voskanyan, digər erməni politoloqu, "Modus Vivendi" Mərkəzinin rəhbəri Ara Papayanın Yerevanın İran-ABŞ danışıqları üçün meydan olması fikirlərini rədd edib və bunu belə əsaslandırıb ki, Ermənistanın özü hazırda daxili və xarici problemlər məngənəsində boğulur. Beləliklə, Yerevanda Ruhani-Tramp görüşünün mümkünsüz olduğunu deyən Voskanyan Papayanın proqnozuna qarşı deyib: "İcazənizlə cənab Papayanın sözlərinə münasibət bildirim. Hazırkı vaxtda Ermənistanın İran-ABŞ münasibətlərinin normallaşdırılması üçün meydan seçilməsi real deyil. Biz, faktiki olaraq, uzunmüddətli seçkiöncəsi mərhələdəyik. Ermənistanın xarici məsələlərdə aktivliyi məhduddur və biz, çətin ki, ABŞ və İran kimi iki nəhəng dövlətin danışıqları üçün meydan rolunu oynaya bilək".

**Bu, bir reallıqdır və Vardan Voskanyanın Ara Papayanın iddiasına cavabında həqiqət var**

Voskanyana görə, bunun üçün uzun müddət xarici siyasətdə korrektələr aparmaq lazımdır və bunun mümkünlüyü yaxın günlərdə görünmür.

Söz yox ki, erməni iranşünas bununla dolayısı ilə Ermənistanın mövcud hakimiyyətinin zəifliyini etiraf edib və işarə vurub ki, ölkənin özü siyasi böhran içində çabalayır. Beləliklə, heç bir halda, Yerevanın iki dövlətin danışıqları üçün meydan ola biləcəyinə inanmadığını bildirib. Əlbəttə, bu, bir reallıqdır və Vardan Voskanyanın Ara Papayanın iddiasına cavabında həqiqət var.

***Rövşən RƏSULOV***

# Bu gün bəzi bölgələrdə 39 dərəcə isti olacaq

***Ölkə ərazisində avqustun 8-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal küləyi əsəcək, gündüz arabir güclənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 22-25°, gündüz 30-35°, Bakıda gecə 22-24°, gündüz 33-35° isti olacağı ehtimalı var.***

Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz təşkil edəcək. Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun temperaturu 26-27°, cənub çimərliklərində isə - Türkan, Hövsan, Sahil və Şıxda isə 27-28° isti olacaq. Şimal küləyi əsəcək, gündüz arabir sürətlənəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 8-də Abşeron yarımadasında gündüz arabir güclənən xəzri küləyi əsəcək ki, bu da meteohəssas insanlar üçün müsbət amildir. Bakıda və Abşeron yarımadasında avqustun 9-u gündüzdən 11-i axşamadək şimal-qərb küləyinin arabir sürətlənəcəyi proqnozlaşdırılır. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° enəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin səhər və axşam bəzi dağlıq rayonlarda şimşək çaxacağı, yağış yağacağı ehtimal edilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 34-39° isti, dağlarda gecə 12-17°, gündüz 23-28° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava yağmursuz olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 32-37° isti olacağı gözlənilir.



Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi yerlərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, axşam ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 23-28° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 31-36° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər və axşam bəzi yerlərdə şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 29-34° isti, dağlarda gecə 10-15° gündüz 22-27° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 34-39° isti olacağı ehtimal edilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-25°, gündüz 31-36° isti, dağlarda gecə 15-20°, gündüz 26-31° isti olacaq.

Avqustun 8-i axşam şimal və qərb rayonlarından başlayaraq avqustun 12-dək Azərbaycanın rayonlarında hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° enəcək. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarında qısamüddətli daşqın və sel olacağı bildirilir.

## Gəncədə evdən pul və qızıl əşyaları oğurlayan şəxs tutulub



Gəncədə evdən 116 min manata yaxın pul və 30 min manatlıq qızıl əşyalar oğurlayan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kəpəz Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində ötən ilin yanvarında Gəncə şəhərindəki evlərin birindən 115 min 700 manat pul və 30 min manat dəyərində qızıl əşyalar oğurlamaqda şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş Xudaverdi Əflaki saxlanılıb, daha bir nəfərin isə şəxsiyyəti müəyyənləşdirilib.

## Narkotik vasitələrin satışı ilə məşğul olan Balaxanı sakini saxlanılıb



Daxili İşlər Nazirliyinin (DİN) Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan Sabunçu rayonunun Balaxanı qəsəbəsi sakini Emin Əliyev saxlanılıb. DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, onun üzərinə hal şahidlərinin iştirakı ilə baxış keçirilən zaman 23,631 qram heroin, metadon həbləri, 12,104 qram psixotrop maddə olan metamfetamin və 1 ədəd elektron tərəzi aşkarlanaraq götürülüb. Saxlanılan şəxs ifadəsində bir müddətdir ki, yaşadığı Balaxanıda narkotik maddələrin satışı ilə məşğul olduğunu etiraf edib. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Əfqanıstanda ABŞ-ın hərbi zərbələri və talibləri hücumu nəticəsində 50 nəfər ölüb



ABŞ hərbi hava qüvvələrinin aviazərbələri və Taliban hərəkatının hücumları nəticəsində Əfqanıstanın şərqindəki Lohar vilayətində azı 50 dinc sakin və təhlükəsizlik qüvvələrinin əməkdaşları həlak olub. AZƏRTAC "Ria Novisti" agentliyinə istinadla xəbər verir ki, Taliban terror təşkilatının nümayəndəsi Zəbiullah Mücahid hücum faktını təsdiqləyib. Lakin zərərçəkənlər haqqında heç nə deməyib.

Bundan başqa Pajvak agentliyi vilayət şurasının üzvü Abdul Vəli Vəkilə istinadla xəbər verir ki, 35 təhlükəsizlik qüvvələri əməkdaşı və dinc sakin toqquşmalarda öldürülüb. Onun sözlərinə görə, daha 15 polis işçisi ABŞ aviasiyasının zərbələri nəticəsində həlak olub.

## Narkotik tərkibli bitkilər yetişdirən Balakən sakini saxlanılıb



Balakən Rayon Polis Şöbəsinin əməkdaşlarının narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində növbəti əməliyyat tədbiri uğurla nəticələnib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, Balakən Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında avqustun 6-da keçirdikləri əməliyyat-axtarış tədbirlər zamanı rayonun Tülü kənd sakini İsmayıl Murtuzəliyev saxlanılıb. Onun yaşadığı kənddə "Qıraq oba" adlanan sahibsiz yerdə əkib-becərdiyi ümumi çəkisi 99 kiloqrama yaxın 60 ədəd narkotik tərkibli çətənə kolu aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırma aparılır.

TƏRS BAXIŞ

# Rəsul Quliyev yenidən müxalifəti silkələdi

*"Milli Şura", AXCP və Müsavat rəhbərliyi sabiq spikerin ittihamllarına qarşı əks-arqument qoymağı bacarmadı*

**Hazırda ABŞ-da mühacir həyatı yaşayan eks-spiker Rəsul Quliyev son günlər ənənəvi düşərgədə baş verən gizli və açıq savaşlara növbəti münasibətini bildirib. Sosial şəbəkənin imkanlarından maksimum yararlanan Rəsul Quliyev radikal təmayüllü müxalifət liderlərinə qarşı, demək olar ki, qasırğa kimi əsib və aranı yenidən qatmağı bacarıb. Çünki onun sərt tondakı ittihamları, eləcə də, kinayəli ifadələri qarşı tərəfin reaksiyasızlığı ilə nəticələnib. Daha dəqiq desək, Rəsul Quliyevin ittihamlarına reaksiyasızlıqla reaksiya verən radikal liderlər qapazaltı olduqlarını dolayısı ilə etiraf etmiş olublar.**

## Sabiq spiker: "Milli Şura"nı yaradan siyasi partiyaların heç biri hazırda orada təmsil olunmur"

Məsələn, sabiq spiker ilk öncə, vaxtilə təmsil olunduğu "Milli Şura" rəhbərliyini hədəfə alaraq, oranı ayrıca qurum kimi deyil, məhz Əli Kərimlinin AXCP-nin yedək təşkilatı olduğunu iddia edib. İttihamlarının baza hissəsini "Azərbaycanda müxalifət yoxdur" kontekstində quran Quliyev bəyan edib ki, əslində, "Milli Şura" real olaraq yoxdur. Onun, sadəcə, adı mövcuddur ki, oradakılar həmin quru ad vasitəsilə maraqlarını təmin etməyə cəhdlər göstərirlər. Sitat: "Milli Şura" felən mövcud olmayan qurumdur. Keçmiş "Ziyalılar Fondu"nun bir qrup üzvü özlərini "Milli Şura" adlandırırlar. Onlar özlərini "Ziyalılar Fondu" da adlandıra bilməzlər. Çünki o fondun iştirakçılarının 40%-i ziyalı deyillər. "Milli Şura"nı yaradan siyasi partiyaların heç biri hazırda orada təmsil olunmur. Yalnız AXCP-dən başqa".

İlk görünən budur ki, həqiqətən də, "Milli Şura" adlı qurum, ümumiyyətlə, yoxdur. Hətta mətbuat bu olmayan qurum barədə bir neçə gün yazmasa, ümumiyyətlə quru adı da əriyib yox olacaq. Sadəcə, "Milli Şura"nı əlində saxlamağa cəhd edən yeganə fərd varsa, o da AXCP sədri Əli Kərimlidir. Halbuki 2013-cü ilin prezident seçkilərindən sonra təşkilat tamamilə məhvolma dövrünü yaşamalı oldu: "Bu qurum 2013-cü ilin prezident seçkilərindən sonra süqut edib. AXCP-dən ibarət olan "Milli Şura" Azərbaycanda müxalifətin olmadığını icazəli mitinqlərə çıxartdıqları insanlarla sübut etdilər. Metronun yaxınlığındakı stadionda iki minlik mitinqlə başladılar və 300 iştirakçı ilə aksiyalarını başa vurdular. Mitinqləri yarım saat gec başlayır və yarım saat da tez başa vururdular. Çünki insanlar sona qədər qalmırdılar".



R.Quliyev 2018-ci il seçkilərinin boykot edilməsini də ən ucuz və axmaq addım olduğunu bildirib.

## Rəsul Quliyev: "İsa Qəmbərin, Əli Kərimlinin və Cəmil Həsənlinin liderliklərinə şübhəm var"

Daha bir maraqlı nüanslardan biri də Quliyevin "Milli Şura", AXCP ilə yanaşı, ənənəvi düşərgədəki digər müxalifət partiyalarının da bostanlarına daş atması marağıdır. Məsələn, zamanında "Milli Şura"da olan, hazırda isə başqa cinaha keçərək, müxtəlif ictimai qurumlar şəklində fəaliyyət göstərən siyasi təşkilatların boş işlərlə məşğul olduğunu iddia edən sabiq spiker qarşı tərəfin səylərinin heç bir nəticə verə bilməyəcəyini vurğulayıb. Üstəlik, özlərini lider elan edənlərin də liderliklərinə böyük şübhə ilə yanaşdığını bildirib. Sitat: "İsa Qəmbər, Arif Hacılı, Əli Kərimli, Cəmil Həsənlinin təşkilatçılıq və bacarıqlarına bələd deyiləm. 1993-cü ildən bu yana olan fəaliyyətlərinə baxaraq, onların liderlik rolunu oynayacaqlarına şübhəm var. Real vəziyyətdə bu şəxslər özlərini lider kimi göstərməyiblər. Hətta onlarla birlikdə olduğumuz 2005-2013-cü illərdə onların atdıqları addımlar uğurlarımızı tar-mar etdi..."

Məhz buradan da, görünür ki, Quliyev vaxtilə onlarla birgə olduğuna, eləcə də, onlara inandığına görə hazırda peşmançılıq çəkir. Çünki ona verilən vədlərin heç biri yerinə yetirilməmiş qalmaqla yanaşı, ölkəyə qayıdışı üçün xərclədiyi on minlərlə dollar pulları da, məhz radikal müxalifət liderləri tərəfindən yeyildi.

## ADP sədri Sərdar Cəlaloğlu keçmiş liderinə dəstək verib: "Əli Kərimlinin dəstəsində olan bəzi şəxslər yanlış hərəkət edərək, Gürcüstanda ermənilərdən pul aldılar"

Növbəti maraqlı məqamlardan biri də vaxtilə Rəsul Quliyevi özünə lider seçmiş ADP sədri Sərdar Cəlaloğlunun onun ittihamlarına ikibaşlı reaksiyasıdır. Hazırda siyasətdən daha çox "elmi işlərlə" məşğul olduğunu iddia edən Cəlaloğlu bu dəfə Quliyevin sözlərinə susqun qalmağı bacarmayıb. Sabiq spikerin ölkədə müxalifətin olmaması iddiasına gəlincə, ADP sədri əks-iddia ilə çıxış edib ki, guya ən güclü müxalifətçiliyi onun partiyası edir. Ancaq o, müəyyən məqamlarda keçmiş lideri ilə razılaşdığını da istisna etməyib: "...Rəsul Quliyev Azərbaycanda olmadığına görə, onun fikirləri düzgün olmaya bilər. Amma 2005-ci illə bağlı fikirləri ilə qismən razıyam. O vaxt yanlış addımlar atıldı. Nəticədə, nailiyyətlər əldə edə bilmədik. Həmin vaxt müxalifət üçün parlamentdə 35-40 yer təklif olunmuşdu. Amma bizim yoldaşlar 75 yer istədilər. Ona görə də, uğur əldə edə bilmədik. Sonra Əli Kərimlinin dəstəsində olan bəzi şəxslər yanlış hərəkət edərək Gürcüstanda ermənilərdən pul aldılar. Bundan hökumət hərəkata qarşı vasitə kimi istifadə etdi. Beynəlxalq aləm də dəstək verməkdən imtina etdi. Rəsul Quliyevin fikirlərinin hamısını yanlış kimi qələmə vermək olmaz. Eyni zamanda, fikirlərin hamısını da doğru kimi qəbul etmək düzgün olmazdı. Bu baxımdan, tənqidləri ilə həm qismən razıyam, həm də razı deyiləm".

## Müsavat rəhbərliyi yaxasını kənara çəkdi və çeynənmiş cavabla kifayətləndi

*Gülağa Aslanlı:*
***"Rəsul Quliyev bitmiş siyasətçidir..."***

Müsavat partiyasının icra aparatının sədri Gülağa Aslanlıdan da Rəsul Quliyevin ittihamlarına cavab gecikməyib və o, sabiq spikerin sözlərinə ciddi əhəmiyyət vermədiyini ifadə etməklə yanaşı, onu bitmiş siyasətçi adlandırıb. Hətta Müsavat rəhbərliyinin bundan sonra Rəsul Quliyevin fikirlərinə şərh verilməyəcəyini deyib: "Rəsul Quliyev bitmiş siyasətçidir. Bunun üçün də onun nə deməsinə hər hansı bir şərh vermək istəmirəm. O, bitmiş şəxsdir, bitmiş siyasətçidir. Onun fikirlərinin Müsavat partiyası üçün heç bir əhəmiyyəti yoxdur".

"Milli Şura" və AXCP cinahından isə, ümumiyyətlə, mövqe bildirilməyib ki, bu da hər iki tərəfin Quliyevin irəli sürdüyü ittihamlarında haqlı olmasının etirafı kimi qəbul oluna bilər. Çünki ən azından etiraz, yaxud da əks-arqument ola bilərdi. Yoxdursa, demək, sabiqspiker müxalifətlə bağlı fikirlərində haqlı olduğunu tamamilə sübuta yetirməyi bacarıb. Necə deyərlər, hər şey tam çılpaqlığı ilə göz qabağındadır...

**Rövşən NURƏDDİNOĞLU**

# Müxalifətin əbədi yoxluğu

*Təhmasib Novruzov: "Anlaşılan odur ki, ağaları istirahətə çıxdıqlarına görə, özləri də məzuniyyət götürüblər"*

**Son vaxtlar Azərbaycan müxalifətindən səs-soraq yoxdur. Bu, artıq bir faktdır ki, müxalifətin dağıdıcı qanadı yalnız öz maraqlarının təmin olunması baxımından, fəaliyyətini qurub. Ümumiyyətlə, adların müxalifət qoyan qaragüruhçular şəbəkəsi ölkəmizdə ictimai-siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olunublar, özünütəcrid siyasəti yürüdüblər. Belə ki, radikal müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Belə olan halda isə, mövsümi müxalifət hesab edilən adıçəkilən zümrə daimi şəkildə "məzuniyyətdədir".**



"Azadlıq Hərəkatçıları" İctimai Birliyinin sədri Təhmasib Novruzov da "Səs" qəzetinə açıqlamasında bildirib ki, çox yəqin ki, onlar daimi məzuniyyətə çıxıblar: "Bizim "sevimli" müxalifətimizin fəaliyyəti dünyada analoqu olmayan formalarla özünü göstərir. Demokratik ölkələrin heç birində müxalifət dövlətə qarşı deyil, mövcud iqtidara qarşı müxalifətçilər müxalif olurlar. Bizdə isə bu fəaliyyət dövlətə və dövlətçiliyə birbaşa təhdidlə müşahidə edilir. Yəni cəmiyyətin problemlərinin həllinə, demokratiyanın inkişafına, dövlətçiliyin əsaslarının möhkəmlənməsinə deyil, şəxsi ambisiyalarına və dövlət maraqlarının qurban verilməsinə xidmət onlar üçün adi haldır. Bu isə, Azərbaycanı sevməyən xarici qüvvələrin maraqları ilə üst-üstə düşür".

"Odur ki, həmin qüvvələr müxalifətimizə həm siyasi, həm hüquqi, həm də, şübhəsiz, maliyyə yardımı göstərirlər"-deyə qeyd edən T.Novruzov, həmçinin, bildirib ki, bu qüvvələr, əsasən, Qərb dövlətlərində fəaliyyət göstərirlər: "Onların da məlum bir qanunları var ki, istirahət və bayram günlərində, eləcə də, məzuniyyət zamanı yalnız istirahət edir, siyasi, hüquqi, iqtisadi və digər fəaliyyətlə məşğul olmurlar. Bu baxımdan, müxalifətimizlə də işləmirlər. İndi də yaydı. Adətləri üzrə Qərb ölkələrində yay aylarında kütləvi şəkildə məzuniyyət, əsasən də, turist səfərləri başlayır. Belə də onlar bütün fəaliyyətlərini dondurur, yalnız istirahət barədə düşünürlər".

"Nəticədə, buyruq qulu olan müxalifətimiz də qalıb ağasız, göstərişsiz"-deyə qeyd edən Azadlıq Hərəkatçıları Birliyinin sədrinə görə, gərək onlara göstəriş verilə, verilən göstəriş üçün lazım olan vəsait ayrıla ki, bunlar da başlasınlar həmin göstərişləri icra eləməyə: "Anlaşılan odur ki, ağaları istirahətə çıxdıqlarına görə, özləri də məzuniyyət götürüblər. Bu isə, müxalifətimizin dünya siyasilərindən fərqləndiyinin daha bir göstəricisidir. Darıxmayaq, ağaları istirahətlərini başa vurub dönərlər, yenidən Azərbaycana qarşı uğursuz təzyiq variantlarını cızarlar, göstərişlərini verərlər, pullarını ödəyərlər, müxalifətimiz də bizi bu darıxmaq mərəzindən xilas edər. Sadəcə, bir-iki ay dözmək gərəkdir".

T.Novruzov onu da bildirib ki, hər zaman olduğu kimi, yenə də müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa, onlar da nəyə isə nail ola biləcəklər: "Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir".

**GÜLYANƏ**

# XX əsrin əvvəllərində Azərbaycan milli ideya və insan hüquqları uğrunda mübarizə aparan milli ziyalılar

***Azərbaycanda konstitusiyaçılıq üzrə, bilavasitə iş təxminən 1905-ci ildən başlayır; 17 avqustda çar manifesti nəşr olunduqdan sonra hərəkat bütün Rusiya imperiyasını bürümüşdü. Müsəlman Konstitusiyaçı Partiyasının təkcə ad, Rusiyada İslam tərəfdarlarına bərabər hüquqlar istənilməsinin məqsəd və metodları haqqında təsəvvür verirdi. Bu dövrdə yaranan sosialist təşkilatları (Azərbaycanda-"Hümmət" təşkilatı) ölkədə konstitusiya idarəçiliyinin qurulmasını müdafiə edirdilər.***

Professor Əli Abbasov yazır: "Hümmət"in nümayəndələri əllərindən gələni etdilər ki, siyasi sistemin liberallaşma dalğası qonşu İrana da yayılsın. 1905-ci ildə Dövlət Dumasına seçkilər Azərbaycan partiyalarının etiqad etdiyi demokratik və konstitisional dəyərlərin sınağı oldu. Müsəlman əhalisi seçkilərə buraxılıb öz nümayəndələrini Dumaya seçmək hüququ əldə etsələr də, çoxsaylı məhdudiyyətlər bu işin əhəmiyyətini azaldırdı. "Yüksək senz nəticəsində, o vaxt 240 min əhalinin yaşadığı Bakıdan və onun rayonlarından yalnız 15 min nəfəri və ya 6 faizdən bir qədər çoxu seçkilərdə iştirak etmək hüququna malik idi". III Dövlət Dumasına seçkilər zamanı isə Orta Asiyanın əhalisi ümumən "kifayət qədər yetkin olmadığına görə seçki hüququndan məhrum edilmiş, bütün Qafqaz isə 29 deputat əvəzinə, yalnız 10 deputat seçmək imkanı əldə etmişdi".

1905-ci ilin sonu 1906-cı ilin əvvəlində ilk Ümumrusiya siyasi təşkilatı olan "Konstitusiyaçı Demokrat" Partiyasının Bakı şöbəsinin yaranmasını mühüm hadisə saymaq olar (bu təşkilata leqal surətdə Ə.M.Topçubaşov, M.Əlibəyov, İ.Hacınski, İ.Səfərəliyev, İ.Hacıyev kimi azərbaycanlılar da daxil olmuşdu). Gözlənildiyi kimi, milli muxtariyyətlərin təsis edilməsi problemi (rus partiya həmkarları bunun əleyhinə idilər) bu, partiya üçün sınaq oldu.

18 fevral 1905-ci ildə "əhali arasından ən ləyaqətli, etibarlı şəxslərin seçilərək" qanunvericilik müddəalarının işlənib-hazırlanmasında iştirakı haqqında çar reskripti (sənədi) çap olundu. Azərbaycan siyasi elitasının liberal qanadı ümid edirdi ki, bu yolla bütün Rusiya əhalisi ilə Qafqaz diyarı əhalisi sakinləri arasında hüquq bərabərliyinə nail olmaq mümkün olacaqdır. Reskriptdə vəd edilmiş Rusiyanın bütün quberniyalarından seçilmiş nümayəndələrdən ibarət Xüsusi Müşavirənin çağırılması haqqında vəd parlamentarizmin əsaslarının təsis olunmasına ümidlər yaradırdı; bu isə, öz növbəsində, milli ucqarların bir çox problemlərinin həllinə, o cümlədən, Qafqazda yerli muxtar özünüidarələrin başlanğıcı kimi nəzərdə tutulmuş zemstvoların yaranmasına kömək göstərə bilərdi. Həm özünüidarə məsələləri, həm də müsəlmanlara da aid edilən vicdan, söz və mətbuat azadlığı, yığıncaqlar və birliklər, şəxsiyyətin və mənzilin toxunulmazlığı, milli dildə ümumi və pulsuz ibtidai təhsilin tətbiqi üzrə məhdudiyyət yaradan qanunların ləğvi, liberalların fikrincə, konstitusiyaçılıq əsasında yaradılan mədəni muxtariyyətin əsasını qoya bilərdi. Bütün bu tələblər Ə.M.Topçubaşov tərəfindən Nazirlər Kabinetinə təqdim olunmuş rəsmi ərizədə ifadə olunmuşdur. Çar hakimiyyətinin bu ərizəyə yeganə 17 aprel 1905-ci il fərmanı oldu ki, burada müsəlmanlara müfti, qazi, ruhaniləri seçmək, həmçinin, etiqad azadlığı verilirdi; bu isə milli müsəlman ziyalı təbəqələrini heç cür təmin etmir, onlar çara yeni ərizələri göndərməkdə davam edidilər. Müsəlman Konstitusiyaçı Partiyasının ("İttifaqi-Müslimin") Topçubaşov tərəfindən yazılmış proqramı kadetlərin proqramı ilə üst-üstə düşürdü: konstitusiyalı monarxiya, xalq nümayəndəliyinin birpalatalı sistemi, çar hökumətinin parlament qarşısında məsuliyyəti, yerli idarəçilik orqanlarına bütün məsələlərin həvalə edilməsi, zemstvoların təsis olunması, şəxsi mülkiyyətin toxunulmazlığı, torpaq islahatı, müsəlmanların digər etiqad sahibləri ilə hüquq bərabərliyi, siyasi və mülki azadlıqların əsaslarının təsisi, din məsələlərində muxtariyyət. Müəllifin fikrincə, ("İttifaqi-Müslimin") legitimlik qazana bilməzdi, çünki Senat iki dəfə onun leqallaşması haqqında xahişi müxtəlif bəhanələrlə rədd etmişdi. Müsəlman elitasının Rusiya cəmiyyətinə birləşmək istəyini 15 aprel 1905-ci ildə qəbul edilmiş Ümumrusiya Müsəlman Qurultayının aşağıdakı qətnaməsində görmək mümkündür:

1. Rusiyanın bütün vilayətlərində müsəlmanların müasir rus həyatının ictimai-mədəni, siyasi tələbatları və vəzifələri zəminində birləşməsi vaxtında və zəruridir.

2. Bu vəzifələrin əldə olunmasında müsəlmanların mütərəqqi hissəsi qabaqcıl rus cəmiyyətinin ideallarını bölüşərək, ölkədə hüquqi qaydaların bərqərar olması, azad seçilmiş xalq nümayəndələrinin qanunvericilikdə və idarəçilikdə iştirakı çərçivəsində hərəkət edir.

3. Bu məqsədlərə çatmağın yalnız müsəlmanların rus əhalisi ilə bərabər hüquqlarda fəaliyyəti ilə mümkünlüyünü dərk edərək, müsəlmanların mütərəqqi hissəsi onlara münasibətdə qanunuiləşdirilmiş, hökumət sərəncamları, administrativ praktika ilə bərqərar olmuş bütün istisnaları, məhdudiyyətləri aradan qaldırmaq və müsəlmanların rus dövlətinin əhalisi ilə bütün hüquqlarda (siyasi, mülki, dini) tam bərabərliyi yolunda zəruri qanuni vasitələrlə fəaliyyət göstərir.

Müsəlmanlar öz fəaliyyətini ümumdövlət həyatının həqiqi və daim genişlənən tələbat və ehtiyacları ilə müvafiq şəkildə yürüdürlər; onlar özlərinin tələbatlarına uyğun olan hər cür məktəblər açmağa, müasir həyatın ideya başlanğıcını yaymaq və təbliğ üçün kitab, qəzet, jurnal buraxmağa, xalq kursları, kitabxana - oxu zalları və bu qəbilli maarif xarakterli müəssisələr təşkil etməyə çalışmalıdırlar.

Yerlərdə bütün nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün müsəlmanların müntəzəm qurultayının rəhbərlik etdiyi məclislər yaradılır. Ümummüsəlman istiqaməti məcrasında ümumtürk hərəkət vəhdətini də xüsusi qeyd etmək lazımdır ki, öz diqqətini bütün türk xalqlarının mədəni vəhdəti problemində, onların həmrəyliyini təmin edə biləcək vahid ədəbi dilin tətbiqində cəmləşdirir. Bu vəzifəni öz üzərinə "Tərcuman" qəzetinin naşiri İ.Qasprinski götürmüşdü (qəzet "Dildə, fikirdə və işdə birlik" devizi ilə çıxırdı). Rusiyanın türkcə mətbuatının xeyli hissəsi, xüsusilə, Azərbaycanda "Həyat", "Füyuzat", "Şəlalə" kimi qəzet və jurnallar Qasprinskinin inkişaf etdirdiyi və sadələşdirdiyi bir dillə nəşr olunurdu. Bu təcrübəyə məqalələrini yeni yazan Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə də qoşulmuşdular.

Tədricən "İslam tərəqqisi" çərçivəsində milli quruculuq proqramları, həmçinin, konstitusiyaçılığın başlanğıcında iki cərəyan formalaşmağa başladı: 1) Bütün Rusiya müsəlmanları, üçün mədəni muxtariyyətin əldə edilməsinə yönəlmiş cərəyan (ona diasporu ən geniş olan və ərazicə səpələnmiş müsəlman-tatar xalqının nümayəndələri rəhbərlik edirdilər). 2. Rusiyanın yenidən qurulması uğrunda azərbaycanlıların başçılıq etdikləri hərəkata (bu, ayrı-ayrı müsəlman xalqlarının müstəqilliyə nail olması uğrunda ilk addım idi). Bu yolda (islamçılıq) Azərbaycan azadlıq hərəkatının təşəkkülündə ancaq keçid mərhələsidir (obyektiv olaraq, islamçılıq, əslində, mühüm mərhələlər olub dini fərqlərin qiymətdən düşməsi, sünnilik ilə şiəlik arasında ziddiyyətlərin yumşalması, müsəlman cəmiyyətinin ilkin həmrəylik əsası demək idi). Avropa millət ideyasının təsiri altında bu ideologiya əvvəlcə islamçılığa, yəni ümumtürk dini özünü tanımasının təsdiqinə və sonra da bütün türk xalqlarının birləşməsi ideyasına gəlib çıxmışdı. Tamamilə təbiidir ki, Azərbaycan elitası, bir müstəmləkə elitası olaraq, öz baxışlarını qonşu dövlətlərə, öz müstəqilliklərini qorumuş müsəlman dövlətlərinə dikməli idilər, Şiəliyin üstün mövqeyi, hətta XIX əsrin ikinci yarısında, xüsusilə, güclənməsi İrana olan hüsn-rəğbəti artırmalı idi, Türkiyəyə yox. Lakin hər iki qüvvə Türkiyəni seçmişdi. Birincisi, bu, ona görə idi ki, Azərbaycan dili də millətçiliyin Avropa tiplərinin modeli üzrə (panislamizm, pangermanizm) qurulurdu. İkincisi, Türkiyə İranla müqayisədə daha mütərəqqi, Azərbaycan ziyalılarının liberal və qabaqcıl meyillərinə cavab verən bir ölkə idi. Halbuki millətçiliyin şiə ölkəsindən sünni ölkəsinə üstünlük verməsi bu millətçilikdə dini amilin rolunu zəiflətmişdi.

Ə.Abbasov qeyd edir ki, yeni doğulan dünyəvi ruh ədəbi yaradıcılıq mühitinə üzvi surətdə daxil olur, milli problemlərin və gələcək inkişafın modellərinin güzgüsündə özünəməxsus şəkildə əks olunurdu. C.Məmmədquluzadə və M.Ə.Sabirin ideya rəhbərliyi ilə doğulan "Molla Nəsrəddin" jurnalı yeni Azərbaycan fenomeni - tənqidi realizmi meydana çıxarmış, zamanın və tərəqqinin normasına çevirmişdi. Azərbaycan dilinin inkişafı da bu proseslə paralel gedirdi. Sabir Azərbaycan ədəbi dilini satira konteksti, dövrün sosial və siyasi reallıqları hesabına zənginləşdirmiş, həmin missiyanı C.Məmmədquluzadə də nəşr sahəsində həyata keçirmişdi.

Ümumən nəzərdən keçirdiyimiz dövr Azərbaycan yaradıcı ziyalıları tərəfindən bədii janrların, ideya istiqamətlərinin əlvanlığının mənimsənilməsi və orijinal inkişafı dövrüdür. Ədəbi yaradıcılığın poeziya, nəşr, dramaturgiya, satira, realizm, romantizm, roman forması, ayrıca istiqamət kimi uşaq ədəbiyyatı, publisistika və s. sahələrin və yaradıcılıq metodlarının inkişafı da bu dövrə təsadüf edir. Paralel cizgilər milli musiqi mədəniyyətinin inkişafında da baş verir, bu mədəniyyət Qərb musiqisinin klassik peşəkar cizgiləri ilə zənginləşir, musiqi əsərlərinin mürəkkəb formaları yaranırdı. Milli teatr (1873, mart), milli mətbuat (1875, aprel), milli-mədəni cəmiyyətlər və birliklər milli özünüdərkin təşəkkülünün parlaq təcəssümü idi. Bu özünüdərkin beşiyi başında vaxtilə intibahın "titanları" və yeni dövrün "ensiklopediyaçıları" durduğu kimi, yeni gerçəkliyin insanları dayanmışdılar. Həqiqətən, o dövrün xadimlərinin çoxu hərtərəfli inkişaf etmiş insanlar, mədəniyyətdə və siyasətdə, ədəbiyyat və sənətin müxtəlif növlərində məhsuldarlığı ilə fərqlənmiş yüksək istedadlı peşəkarlar, o cümlədən, hüquqşünaslar, həkimlər, mühəndislər və bəstəkarlar idi. Təkcə Ü.Hacıbəyov, Ə.Hüseynzadə, M.Şaxtaxtinski, Ə.Ağayev, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və N.Nərimanovun adlarını çəkmək kifayətdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Maarifçiliyin ən yaxın məqsədi olan təhsil zamanın tələbinə çevrilmişdi, təsadüfi deyil ki, təsvir olunan dövrdə ana dilində olan məktəblər, qız məktəbləri, qadın jurnalları, həmçinin, xüsusi uşaq nəşrləri ("Dəbistan", 1906-1907; "Rəhbər", 1906; "Məktəb", 1911-1918) meydana çıxmışdı. Hərçənd rus məktəbləri Azərbaycanda XIX əsrin 60-cı illərində açılsa da, qızlar üçün ilk Rus-Tatar (müsəlman) Məktəbi yalnız 1901-ci ildə açılmışdı; məşhur xeyriyyəçi və neft sahibkarı Z.Tağıyev müsəlman qızları üçün məktəb təşkil etmiş, onun həyat yoldaşı S.Tağıyeva işi aparan Müsəlman Qadınları Komitəsini yaratmışdı. X.Əlibəyova isə 1906-cı ildən Gəncədə qadınlar arasında 1911-ci ildə ilk xeyriyyə qadın jurnalını ("İşıq") buraxmağa müvəffəq olmuşdu.

Keçən əsrin əvvəli Azərbaycanın yaxın qonşuları üçün də tarixi dövr olmuşdur: 1905-1911-ci illər İran inqilabı dövrüdür, bir qədər sonra onun iştirakçısı Şeyx Məhəmməd Xiyabani (1879-1920) konstitusiya quruluşu və İranda demokratik dəyişikliklər uğrunda mübarizəyə başçılıq etmiş, bu da, öz növbəsində, Cənubi Azərbaycanda milli-azadlıq hərəkatına çevrilmiş, Azərbaycan Demokratik Partiyası təsis olunmuş, Təbrizdə 1920-ci il aprelin 7-də Azadıstan Respublikası elan edilmiş, həmin il iyunun 23-də milli hökumət yaradılmışdı. Nəzərdən keçirdiyimiz dövrdə axırıncı müsəlman xəlifəliyi olan Türkiyə, dövlətin və cəmiyyətin siyasi və mənəvi baxımdan dəyişməsi üçün ənənəvi yarıtmaz irsdən üz çevirərək, kəskin addımlar atdı. Hər iki halda, yeni doğan millətçiliyin problemin həllində qətiyyəti, tarixi hadisələrin sonrakı gedişini müəyyənləşdirdi. Öz demokratik həmləsi ilə İranın bütün müsəlman əhalisini ayağa qaldırmaq istəyən Xiyabani məğlubiyyətə uğradı. İmperiyanın xarabalıqları üzərində milli dövlət qurmaq strategiyası götürmüş Türkiyə isə müasir Avropa dövlətinə çevrildi.

Azərbaycan öz yolunu seçmişdi, bu yolda turançılıq yalnız aralıq mərhələ oldu və Azərbaycan millətçiliyinə gedən yolu açmış oldu. Tədricən milli azadlıq hərəkatının can atdığı siyasi idealın dəqiq obrazı - milli Azərbaycan dövləti formalaşdı; digər türk xalqları ilə, birinci növbədə, Türkiyə ilə sıx əlaqələr saxlayan bu dövlət müstəqil, demokratik dövlət olub (Azərbaycan millətçiləri bunu başqa cür təsəvvür də etmirdilər), mədəniyyətin ümumi əsasını təşkil etdiyi, lakin dinin dövlətdən ayrı olduğu bir dövlət idi. Bu, Azərbaycan, müsəlman və şiə mühitinə keçirilmiş Qərb demokratik dünyəvi dövlət obrazı idi. Problem bundan ibarət idi ki, əgər ölkə bolşevik işğalı təhlükəsindən xilas ola bilsəydi, həmin qismən "istixana bitkisi" Azərbaycan zəminində necə yetişəcəkdi.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 8 avqust

## Zəhərlənmədən xərçəngə qədər bütün xəstəlikləri müalicə edən möcüzəli ƏDVİYYAT



Hələ 2500 il bundan əvvəl insanlar sarıkökün güclü müalicəvi xüsusiyyətlərini bilir və onlardan istifadə edirdi. Qədim təbiblər sarıkökün köməyi ilə ilan sancmaları, zəhərlənmə, bir çox daxili orqan xəstəliklərini, sonsuzluğu müalicə edirdilər. Müasir elm də sarıkökün profilaktik və müalicəvi xüsusiyyətlərini çox yüksək qiymətləndirir. Çoxsaylı araşdırmalar sarıkökün xərçəngdən Alsheymer xəstəliyinə qədər effektli olduğunu sübut edib.

Saglamolun.az xəbər verir ki, bir çox araşdırmaların nəticələrinə görə sarıkök xərçəng xəstəliklərinin qarşısını almağa kömək edir. Bundan əlavə sarıkökdən istifadə xərçəngin müalicəsinin effektliyini artırır. Bunun səbəbi sarıkökün tərkibində olan "kurkumin" adlı aktiv maddədir. Məhz kurkumin xərçəng hüceyrələrini öldürür, xərçəng şişinin böyüməsini ləngidir.

Həmçinin kurkumin çox güclü təbii antiseptik və antibiotikdir. Bu maddə ziyanlı mikrobları öldürür, iltihabları azaldır. Məsələn, sarıkök vərəm çöpünə qarşı effektlidir və vərəm xəstəliyinin müalicəsində kömək edir.

Sarıkök mədə-bağırsaq sisteminə çox yaxşı antiseptik təsir edir.

Sarıkökün həmçinin güclü antioksidant xüsusiyyətləri var. Bunun sayəsində sarıkök orqanizmi cavanlaşdırır, bir çox xroniki xəstəliklərin inkişafının riskini azaldır.

Sarıkök ürək və damarlar üçün də çox faydalıdır - ürək əzələsini möhkəmləndirir, təzyiqi tənzimləməyə yardım edir, damarların vəziyyətini yaxşılaşdırır.

Sarıkök beyinin fəaliyyətini yaxşılaşdırır, beyinin damarlarını xolesterindən təmizləyir və bununla da Alsheymer xəstəliyinin inkişafını ləngidir.

Digər tərəfdən araşdırmalar göstərir ki, sarıkök yayılmış sklerozun inkişafını ləngitməyə kömək edir.

Sarıkök qaraciyərin sağlamlığına müsbət təsir edir, qaraciyərin hüceyrələrini qoruyur. Sarıkök əlavə olunmuş süd qaraciyərin ən yaxşı təbii dərmanı sayılır. Sarıkök arıqlamağa kömək edir, dərinin vəziyyətini yaxşılaşdırır.

## Dezinfeksiyaedici vasitələr bakteriyalara təsirini itirmək üzrədir



Dünyanın bütün xəstəxanalarında infeksiyaların yayılmasının qarşısını almaq üçün sanitayzerdən (əl üçün spirt əsaslı dezinfeksiyaedici vasitə) istifadə edirlər. Amma son tədqiqatların nəticələrinə görə, bu vasitələr ən azı bir bakteriya qarşısında acizdir

AZƏRTAC "MedDaily" saytına istinadla xəbər verir ki, söhbət "Enterococcus faecium" bakteriyasından gedir. Təəssüf ki, bu bakteriya bəzi antibiotiklərə qarşı davamlılıq əldə edib. Nəticədə sidik ifrazı sistemi infeksiyaya yoluxur, sepsis əmələ gəlir. Məsələ bundadır ki, "E. Faecium" ştammları təqribən 20 il ərzində spirt tərkibli dezinfeksiyaedici vasitələrə davamlılıq əldə edib. Bu da o deməkdir ki, sanitariya siyasəti yenidən gözdən keçirilməlidir.

Bütövlükdə spirtli vasitələr çox səmərəlidir. Məsələn, dayanıqlı qızılı stafilokokku zərərsizləşdirir. Lakin universal deyildir.

Alimlər 1997-2015-ci illərdə Melburn xəstəxanalarından toplanmış "E. Faecium" bakteriyalarının 139 nümunəsinin davranışını təhlil ediblər. Məlum olub ki, 2010-cu ildən sonra götürülmüş nümunələr spirtli vasitələrə əvvəlki nümunələrdən 10 dəfə çox davamlıdır. Bu da patogenlərin mübadilə prosesləri ilə bağlı olan genlərdə bir neçə mutasiyanın əmələ gəlməsi nəticəsində baş verib.

## AFFA təmsilçisi UEFA tərəfindən beynəlxalq oyuna təyinat alıb




AFFA-nın beynəlxalq əlaqələr şöbəsinin müdiri Könül Mehdiyeva beynəlxalq oyuna təyinat alıb. AFFA-nın saytında yer alan xəbərə görə, K.Mehdiyeva UEFA Avropa Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində "Şerif" (Moldova) - "Valur" (İslandiya) qarşılaşmasının UEFA nümayəndəsi olacaq. Matç avqustun 9-da yerli vaxtla saat 20:00-da "Şerif" stadionunda keçiriləcək.

## PSV heyətinə yeni futbolçu cəlb edib



"Qarabağ"ın UEFA Çempionlar Liqasının pley-off mərhələsindəki potensial rəqibi PSV heyətinə yeni futbolçu cəlb edib. Klubun rəsmi "Tvitter" səhifəsində yer alan xəbərə görə, Hollandiya təmsilçisi "Çzyansu Sunin"lə (Çin) müqaviləsinin müddəti başa çatan Trent Seynsberini transfer edib. Qeyd edək ki 28 yaşlı oyunçu Avstraliya millisinin şərəfini qoruyur. O, DÇ-2018-də komandanın əsas müdafiəçilərindən biri olub. Xatırladaq ki, "Qarabağ" BATE səddini keçəcəyi təqdirdə, pley-off-da PSV ilə qarşılaşacaq.

## Kaka "Milan"a qayıdır



Braziliya millisinin sabiq üzvü Kaka yenidən "Milan"a qayıdır. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, klubun yeni idman direktoru Leonardo bu barədə açıqlama verib. "Kaka "Milan"ı sevir. O, mənim köməkçim olacaq. Kaka klubda hər şeyin necə təşkil edildiyini bilmək istəyir. O, "Milan"a qayıdacaq" - deyə Leonardo bildirib. Qeyd edək ki, 36 yaşlı Kaka 2003-2009 və 2013-2014-cü illərdə "Milan"da oynayıb.




## "Çelsi" Mett Miazqanı Fransa klubuna icarəyə verib

İngiltərənin "Çelsi" klubu, futbolçusu Mett Miazqanı icarəyə verib. ABŞ millisinin üzvü gələn mövsüm Fransanın "Nant" klubunda çıxış edəcək. Bu barədə yüksək liqa təmsilçisinin rəsmi saytı xəbər yayıb. Mövsümün sonunda "Nant" bu futbolçunun transfer hüquqlarına da yiyələnmək şansı qazanıb. Qeyd edək ki, 23 yaşlı futbolçu "Çelsi"yə 2016-cı ildə ABŞ-ın "Nyu York Red Bullz" klubundan transfer edilib. O, son iki mövsümdə icarə əsasında Hollandiyanın "Vitess II" komandasında oynayıb.

## Belçika millisinin forvardı "Borussiya"da!



"Tyanszyan Syuantszyan" klubunun futbolçusu Aksel Vitselin "Borussiya"ya keçidi rəsmiləşib. Bu barədə Dortmund təmsilçisinin saytı xəbər yayıb. Belçika millisinin üzvü komandanın İsveçrədəki toplanışına qoşulub. Onunla 4 illik müqavilə imzalanacaq. Futbolçu ilinə 10 milyon avro qazanacaq. Qeyd edək ki, 29 yaşlı futbolçu ötən il "Zenit"dən Çin klubuna keçmişdi.

## 23 yaşlı futbolçu "Yuventus"dan getdi




"Fiorentina" heyətini yeni futbolçu ilə gücləndirib. Florensiya təmsilçisi "Yuventus"un hücumçusu Marko Pyaçanı heyətinə qatıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. "Fiorentina" bir mövsümlük icarə üçün Turin klubuna 2 milyon avro ödəyəcək. Qeyd edək ki, Xorvatiya millisinin də üzvü olan 23 yaşlı futbolçu ötən mövsüm İtaliya A Seriyasında 14 oyuna çıxıb.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500